**Bu bir xalq qəzetidi**

# ƏDALƏT

## Azərbaycanda şəhid ailələrinin üzvlərinə yeni imkanlar yaradılır



**Azərbaycanda şəhid ailələrinin üzvlərinə yeni imkanlar yaradılır.**

Adalet.az-ın məlumatına görə, bununla bağlı "Məşğulluq haqqında" qanuna dəyişiklik edilməsi nəzərdə tutulur. Dəyişikliklərə əsasən, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin dairəsinə şəhid ailəsinin üzvləri də aid edilir. Bundan sonra peşə hazırlığının, işsiz şəxslərin özünüməşğulluğunun və sosial iş yerlərinin təşkili zamanı şəhid ailələrinin üzvlərinə də digər həssas qruplarla birlikdə üstünlük veriləcək. Son dövrlər dövlət qəbul etdiyi bir sıra qanunvericilik aktları ilə şəhid ailələri ilə bağlı təminatları həm sadələşdirir, həm də onların təminatlarını daha da artırır. Bu dəyişikliklə dövlət şəhid ailələrinin sosial təminatının daha da yaxşılaşdırılması məqsədini güdür.

## Naxçıvan Dövlət Tarix Muzeyinə direktor təyin edildi



**Naxçıvan Dövlət Tarix Muzeyinə direktor təyinatı olub.**

**Adalet.az xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov sərəncam imzalayıb.**

**Sərəncamla Fizzə Qulu qızı Quliyeva Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru təyin edilib.**

## 674 koronavirus xəstəsinə cinayət işi başlanılıb

**2020-ci ildıə ölkə üzrə daxili işlər orqanları əməkdaşları tərəfindən saxlanılan aktiv COVID-19 xəstələrinin sayı açıqlanıb.**

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən Adalet.az -a verilən məlumata görə, 2020-ci ildə karantin rejimini pozamaqla xəstəliklərin yayılması üçün real təhlükə yaratmaları faktlarına görə 689 aktiv COVID-19 xəstəsi saxlanılıb.

Qeyd edilib ki, ictimai yerlərdə hərəkət edən aktiv COVID-19 xəstələri ilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə 674 cinayət işi başlanılıb.

## DİN saxta profillərlə bağlı xəbərdarlıq etdi



**Daxili İşlər Nazirliyi (DİN) sosial şəbəkələrdə saxta profil iştirakçıları ilə bağlı vətəndaşlar müraciət edib.**

Nazirliyin Mətbuat xidmətindən Adalet.az-a verilən məlumatda bildirilir ki, son günlər Daxili İşlər Nazirliyinin adından və loqotipindən istifadə etməklə sosial şəbəkələrdə icazəsiz və saxta səhifə, kanal, profillər yaradan, işlədən, o cümlədən özünü polis əməkdaşı kimi təqdim edən şəxslərin sayı artmaqdadır: "Belə profillərin yaradılması, işlədilməsi yolverilməzdir və qanunla müəyyən edilmiş qaydada məsuliyyət yaradır. Həmin səhifə və profillərdə polisin fəaliyyətinə dair təhrif olunmuş yanlış məlumatlar yerləşdirilir, vətəndaşlar tərəfindən ünvanlanmış suallara səhv cavablar yazılır. Ona görə də sosial şəbəkə izləyicilərinə saxta səhifə və profillərdən istifadə etməməyi tövsiyə edirik. İctimaiyyətlə əlaqələrin daha da genişləndirilməsi, polis-vətəndaş və polis-media münasibətlərinin daha da yaxşılaşdırılması məqsədilə Daxili İşlər Nazirliyinin sosial şəbəkələrdə yaradılmış rəsmi səhifələri fəaliyyət göstərir. Kanalımızın "bio" bölməsindən səhifələrimizə keçid edə bilərsiniz".

## Türk şirkətlərindən tekstil sahəsinə 50 milyon dollar yatırım



**Türkiyə şirkətləri işğaldan azad edilmiş ərazilərdə tekstil fabriklərinin qurulması üçün ilkin mərhələdə 50 milyon dollar investisiya qoymağı nəzərdə tutur.**

Bunu Bakıda səfərdə olan Türkiyə Cümhuriyyətinin Tüm Kalkınma İş Adamları və Girişimcilər Dərnəyinin İdarə Heyətinin sədri İlhami Öztürk deyib. O qeyd edib ki, rəhbərlik etdiyi qurum bir çox sahələrdə fəaliyyət göstərir, lakin ilk mərhələdə tekstil sahəsinə yatırım etmək nəzərdə tutulur.

İ.Öztürk digər sahələrdə hansı fəaliyyətlərin göstəriləcəyi Azərbaycandakı müzakirələrdən sonra müəyyən ediləcək.

**Cəlilabad Rayon İcra Hakimiyyəti başçısının maaşını hələ ki heç kim almır. Əvvəlkini DTX apardı.**

## RAZİ NURULLAYEV ÖLKƏNİ TƏRK EDƏCƏK



**Millət vəkili, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev bəyanat verib ki, əgər Milli Bank üçün 450 milyon manata başa gələcək 32 mərtəbəli bina tikilərsə, etiraz əlaməti olaraq Azərbaycanı tərk edəcək.**

Təbii ki, bütün etirazlara baxmayaraq, o bina tikiləcək. Amma istəmirik ki, Razi Nurullayev ölkəni tərk eləsin.

Razi müəllim ölkəni tərk eləsə, salyanlılar demiş, nağayracağux?

Hörmətli Razi müəllim, vaxtında sözünü geri götür, ya da heç olmasa Pakistandan iki dənə atom bombası al, sonra ölkəni tərk elə.

**Bu bir xalq qəzetidi** www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *Gündəlik hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 007 (5839) 22 yanvar 2021-ci il | Qiyməti 30 qəpik

# Anlaşma Memorandumu imzalandı



Bax:səh-2

## ADINI BAYRAĞA YAZDIRAN ZABİT

Bax:səh-3

## GÖRƏN, EVLƏNƏN NƏ QƏDƏR OLUB?



*Oxudum ki, 2020-ci ildə 13439 boşanma qeydə alınıb. Bu, 13439 ailənin başsız, 13439 gəlinin dul qalması deməkdi və nə qədər körpənin də atasız qalması.*

*Görəsən, evlənən nə qədər olub və 2021-ci ildə bu boşanma rekordunu təzələyə biləcəyik, yoxsa yox?*

## Şuşa və digər azad olunmuş ərazilərə avtobus reysləri açıla bilər



**İşğaldan azad edilmiş şəhər və rayonlara avtobus xətləri də açılacaq.**

Bunu Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi yanında Dövlət Avtomobil Nəqliyyat Xidmətinin (DANX) İctimaiyyətlə əlaqələr sektorunun müdiri Nuridə Allahyarova deyib. Onun sözlərinə görə, artıq daşıyıcı şirkətlərin müəyyən edilməsi üçün müsabiqənin başlanması ilə bağlı əmr layihəsi hazırlanıb: "İlkin mərhələdə avtobus reysləri açılacaq yerlər Horadiz, Suqovuşan, Talışkənd, Cəbrayıl və Zəngilan rayonudur. Şuşa şəhərini biz ikinci mərhələyə salmaq istəyirdik, ancaq oraya getmək istəyənlərin çoxluğunu nəzərə alaraq onu da birinci mərhələyə saldıq. Nəzərdə tutulur ki, Şuşaya Gəncədən, Beyləqandan və Yevlaxdan avtobus xətləri işləsin".

## TÜRK DÜNYASININ HAÇAN ASAN GÜNLƏRİ OLUB Kİ?!

**Oxuyuram, yazırlar ki, ABŞ-ın çiçəyi burnunda olan prezidenti Co Baydenin hakimiyyəti dönəmində Türk dünyasını çətin günlər gözləyir.**

ABŞ-ın bütün prezidentlərinin hakimiyyəti dönəmində həmişə Türk dünyasını çətin günlər gözləyib və Türk dünyası da hamısına sinə gəlib.

Ən "tripaçı" Trampıydı, o da Türk dünyasına heç nə edə bilmədi.

Nə isə, kefinizdə olun, ABŞ-ın prezidenti Allahın bacısı oğlu deyil, heç xalası nəvəsi də deyil.

*Əbülfət MƏDƏTOĞLU*

## BAYRAM SƏFƏROV ŞUŞAYA NİYƏ GETMƏYİB?!

Bax: səh.3

## Vətən müharibəsində 65 mədəniyyət işçisi döyüşlərə qatılıb, 8-i şəhid olub

**Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda müqəddəs savaşda iştirak etmək üçün, minlərlə Vətən övladı ilə bərabər, mədəniyyət müəssisələrində çalışan insanlar da könüllü ordu sıralarına yazılıb və onlardan 65 nəfəri səfərbərliyə cəlb olunub.**

Bu barədə Adalet.az-a Mədəniyyət Nazirliyindən bildiriblər. Tarixi Zəfərlə başa çatan müharibədə 8 nəfər mədəniyyət işçisi şəhidlik zirvəsinə ucalıb. Azərbaycan mədəniyyətinə xidmət etmiş bu igidlər Vətən yolunda canlarından keçərək adlarını Azərbaycan tarixinə qızıl hərflərlə yazıblar.

Müharibədə 10 nəfər mədəniyyət işçisi yaralanıb, ümumilikdə 162 nəfər mədəniyyət işçisinin yaxın qohumu şəhid olub.

Ölkəmizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş və yaralanmış mədəniyyət işçilərinin ailələrinə Mədəniyyət Nazirliyi və nazirliyin Həmkarlar İttifaqı tərəfindən maddi yardım göstərilib.

## Şəhid və qazi ailələri tibbi müayinələrdən keçirilib



**"YAŞAT" Fondu yaralanan şəxslərin və şəhid ailəsi üzvlərinin müalicə xərclərinin qarşılanması üzrə işləri davam etdirir.**

Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyala üzrə Dövlət Agentliyindən Adalet.az-a verilən məlumata görə, Fond tərəfindən Bakı və Gəncə şəhərində müvafiq kateqoriyadan olan növbəti şəxslərin tibbi müayinələrdən keçirilməsi və əməliyyatı təmin edilib.

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığı təmin etmək məqsədi ilə yashat.gov.az portalı istifadəyə verilib.

Həmçinin, Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

## Paşinyan parlamentə güllə keçirməyən jiletdə gəldi



**Ermənistan baş naziri Nikol Paşinyan parlamentin iclasına güllə keçirməyən jilet geyinərək gəlib.**

Paşinyanın bu addımı isə sosial mediada erməni jurnalistlər və ictimaiyyət tərəfindən bir mənalı qarşılanmayıb. Parlamentə güllə keçirməyən jilet geyinərək gəlməyi qorxaqlıq adlandıram erməni bloger və jurnalistlər baş naziri qorxaq adlandırıblar. Qeyd edək ki, erməni müxalifətçilər və politoloqlar müxtəlif açıqlamarında Ermənistanda xaosun hökm sürdüyünü və bunun da günahkarının Paşinyan olduğuna görə onun həyatı təhlükədə olduğunu bildirirdilər.

## DİN: 2315 nəqliyyat vasitəsi geri qaytarılıb



***Koronavirus (COVID-19) infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə xüsusi karantin rejiminin tətbiq edildiyi 5 şəhərin və 12 rayonun giriş və çıxışlarında quraşdırılmış xüsusi postlarda Daxili İşlər Nazirliyinin hərbi qulluqçuları və polis əməkdaşları tərəfindən nəzarət-profilaktiki yoxlamalar davam etdirilir.***

***Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən Adalet.az -a verilən məlumatına görə, ötən gün nəzarət-profilaktik tədbirlər nəticəsində postlardan müvafiq qaydada icazə almadan keçməyə cəhd göstərən 2315 nəqliyyat vasitəsi müəyyən olunaraq geri qaytarılıb.***

*Aqil ABBAS*
*aqilabbas@rambler.ru*

## MÜXALİFƏTLƏ OTURUB ÇÖRƏK YEMƏK CİNAYƏTDİRMİ?



**Bəli, əvvəllər bu cinayət sayılmasa da, baş vermirdi. Hətta toylarda, yaslarda müxalifətlə iqtidar rastlaşanda üzlərini yana çevirib gedirdilər. Və yaxud bir-birlərinin toylarına, yaslarına getmirdilər.**

**Amma zaman dəyişdi. İqtidar Prezident Administrasiyasının qapılarını müxalifətin üzünə açdı. Siyasi partiyalarla iş üzrə şöbə yaratdı və həmin şöbənin müdiri Ədalət Vəliyevi də özünün köməkçisi təyin elədi. Bu o deməkdir ki, şöbə müdiri birbaşa prezidentə çıxa bilər.**

Bax: səh.2

## Erməni nazir: 3450 hərbçinin cəsədi müayinə edilib

**Məhkəmə-tibbi ekspertizası tərəfindən indiyədək Dağlıq Qarabağdakı müharibə zamanı ölən 3450 erməni hərbçinin cəsədi müayinə edilib.**

Azvision.az xəbər verir ki, bunu Ermənistanın yeni təyin olunmuş səhiyyə naziri Anait Avanesyan deyib.

Onun sözlərinə görə, gündəlik 30 cəsədin şəxsiyyəti müəyyənləşdirilir. Nazirlik prosesin sürətləndirlməsi üçün yeni avadanlıqlar almaq məcburiyyətində qaldı.

### GÜNÜN LƏTİFƏSİ

Deyir bostanı belləyirdim. Birdən gördüm ki, yerdə 50 qəpiklik metal pul var. Götürüb cibimə qoydum.

Təzədən belləməyə davam edirəm. Görürəm yenə 50 qəpiklik pul. Beləcə düz on dəfə ard-arda.

**- Bəlkə xəzinədir?**

**- Ə, yox ee, sən demə, şalvarımın cibi deşik imiş.**

## Prezident: "Bu layihə ixrac üçün böyük imkanlar açır"



**Son illərdə Azərbaycan və Türkmənistan arasında münasibətlər çox müsbət dinamikaya malikdir. Son 3 ildə Türkmənistan və Azərbaycan prezidentlərinin 5 qarşılıqlı səfəri olub. Bu səfərlər çərçivəsində 50-dən çox sənəd imzalanıb.**

Adalet.az xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə videokonfrans formatında keçirilən görüşdəki çıxışında bildirib.

Dövlətimizin başçısı deyib: "Ən sevindirici hal ondan ibarətdir ki, bütün bu sənədlər, o cümlədən enerji sahəsində əməkdaşlığa dair əldə etdiyimiz razılaşmalar yerinə yetirilir. Bugünkü imzalama Xəzərin karbohidrogen resurslarının mənimsənilməsində yeni səhifə açır. Bu layihə ölkələrimizin, habelə qonşularımızın enerji təhlükəsizliyinin möhkəmlənməsinə şərait yaradacaq. Bu layihə ixrac üçün böyük imkanlar açır, ona görə də xalqlarımızın rifahının yüksəlməsinə şərait yaradacaq".

Azərbaycan Prezidenti çıxışında ikitərəfli qarşılıqlı fəaliyyət məsələlərinə də toxunaraq qeyd edib ki, beynəlxalq strukturlarda da bir-birini fəal dəstəkləyir.

"Azərbaycan BMT Baş Assambleyasının Türkmənistanın əbədi neytrallığı barədə Qətnaməsinin həmmüəllifi olub.

Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın fəaliyyətini qiymətləndirdiyinizə görə də Sizə təşəkkürümü bildirirəm. Sədrlik çərçivəsində bizim təşəbbüsləri, xüsusən Qoşulmama Hərəkatının Zirvə görüşünün, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Sammitinin, həmçinin BMT Baş Assambleyasının koronavirusa qarşı mübarizə məsələləri üzrə xüsusi sessiyasının keçirilməsi təşəbbüslərini dəstəklədiyinizə görə Sizə təşəkkürümü bildirirəm. Belə qarşılıqlı dəstək bizim münasibətlərimizin ruhunu və xarakterini əks etdirir. Əminəm ki, biz milli maraqlarımızın təmin edilməsi üçün gələcəkdə də beynəlxalq arenada fəal qarşılıqlı əlaqə saxlayacağıq", - deyə Prezident İlham Əliyev vurğulayıb.

## İlham Əliyev: "Nəqliyyat-logistika sahəsində əməkdaşlıq daha yüksək səviyyəyə çatacaq"

**Nəqliyyat sahəsində əməkdaşlıq həm bizim ölkələr, həm də qonşularımız üçün böyük perspektivlər açır. Türkmənistan və Azərbaycan nəqliyyat infrastrukturunun, məhz sıx qarşılıqlı əlaqəli şəkildə işləyən və bizim ərazilərimizdən keçməklə yüklərin tranzitini təmin edən, habelə Azərbaycan ilə Türkmənistan arasında əmtəə dövriyyəsi imkanlarını artıran müasir beynəlxalq dəniz limanları yaradılması layihələrini bir növ sinxronlaşdırıblar.**

Adalet.az.az xəbər verir ki, bunu Prezident İlham Əliyev Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov ilə videokonfrans formatında keçirilən görüşdəki çıxışında söyləyib.

"Əminəm ki, ölkələrimiz arasında nəqliyyat-logistika sahəsində əməkdaşlıq bizim regionda yaranmış yeni şərait və yeni nəqliyyat yollarının açılması imkanları nəzərə alınmaqla daha yüksək səviyyəyə çatacaq. Düşünürəm ki, bu, bizim bütün tərəfdaşlarımız və qonşularımız üçün əlavə imkanlar yaradacaq", - deyə Azərbaycan Prezidenti bildirib.

Türkmənistanın nəqliyyat-logistika potensialının möhkəmlənməsi işində Prezident Qurbanqulu Berdiməhəmmədovun şəxsi xidmətlərini xüsusi qeyd edərək deyib: "Tranzitlə bağlı məsələlərdə qonşu ölkələrlə qarşılıqlı fəaliyyət olmasa, nəticə əldə etmək mümkün deyil. Bu gün bizim nəqliyyat-logistika infrastrukturunun yüksək səviyyəsini qeyd etməyimiz Türkmənistanın və Azərbaycanın bu sahədə məqsədyönlü fəaliyyətinə dəlalət edir. Bu, bizim regionda və hətta bu regiondan uzaqda - Avrasiya məkanında yerləşən bütün ölkələr üçün çox böyük imkanlar yaradır. Ona görə ki, nəqliyyat sferası da enerji sferası kimi, ölkələri birləşdirir. Bir daha demək istəyirəm, bu gün bizim bu Memorandumu imzalamağımız əlamətdar hadisədir, onun müsbət nəticələri olacaq".

## *İran xarici işlər nazirinin Azərbaycana səfər tarixi və proqramı məlum oldu*

**İran xarici işlər naziri Məhəmməd Cavad Zərif 24 yanvarda Azərbaycana səfər edəcək.**

Bu barədə Trend-ə diplomatik mənbələrdən bildiriblər. İranlı nazir səfər çərçivəsində Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov və Baş nazirin müavini Şahin Mustafayevlə görüşərək danışıqlar aparacaq.

Səfər çərçivəsində Qarabağın işğaldan azad olunmasından sonra bölgədə yaranan yeni əməkdaşlıqlarla əlaqədar haqqında fikir mübadiləsi aparılacaq.

Məhəmməd Cavad Zərifin Bakıya səfərində İran şirkətlərinin Qarabağın bərpasında iştirakı ilə əlaqədar müzakirələr olacaq. İran xarici işlər naziri həmçinin Azərbaycan, İran və Rusiya üçtərəfli əməkdaşlıqlarla əlaqədar Azərbaycan rəsmiləri ilə müzakirələr aparacaq.

# Anlaşma Memorandumu imzalandı

**Dünən Azərbaycan Respublikası Hökuməti ilə Türkmənistan Hökuməti arasında Xəzər dənizində "Dostluq" yatağının karbohidrogen resurslarının birgə kəşfiyyatı, işlənilməsi və mənimsənilməsi haqqında Anlaşma Memorandumu imzalanıb.**

Adalet.az xəbər verir ki, sənəd Azərbaycan Prezidenti İlham Əliyevlə Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədovun videokonfrans formatında keçirilən görüşü çərçivəsində imzalanıb.




Görüşdəki çıxışında sənədin əhəmiyyətindən danışan Türkmənistan Prezidenti deyib: "Ölkələrimiz tərəfindən aparılmış çoxillik böyük işin nəticəsi olan bu sənəd enerji sahəsində əməkdaşlığın və qarşılıqlı anlaşmanın möhkəmlənməsinə, iki nəhəng enerji dövlətinin çox zəngin birgə potensialının üzə çıxarılmasına, Xəzər dənizi regionunda davamlı energetikanın, geniş qarşılıqlı faydalı və beynəlxalq tərəfdaşlığın inkişafı üçün ən əlverişli şərait yaradılmasına yönəlib". Qurbanqulu Berdiməhəmmədov qeyd edib ki, Xəzər mövzusunda qarşılıqlı fəaliyyət Türkmənistan-Azərbaycan əməkdaşlığının ən mühüm istiqamətidir. Ölkələrimiz Xəzər dənizinin möhkəm sülh, mehriban qonşuluq, qarşılıqlı anlaşma və səmərəli tərəfdaşlıq zonasına çevrilməsinə böyük töhfə verirlər.

Prezident İlham Əliyev Anlaşma Memorandumunu tarixi sənəd adlandırıb. "Azərbaycan və Türkmənistan ilk dəfə olaraq Xəzər dənizindəki yatağın mənimsənilməsi üzrə birgə işə başlayır və bu yataq, həmin yataqdakı iş ölkələrimizi və xalqlarımızı daha da yaxınlaşdıracaq, həm Türkmənistan, həm də Azərbaycan xalqlarına xeyir gətirəcək", deyə dövlətimizin başçısı vurğulayıb. Xəzərin mehriban qonşuluq və əməkdaşlıq dənizi olduğunu qeyd edən Azərbaycan Prezidenti əminliklə bildirib ki, "Xəzər ölkələrimiz arasında təbii sərhəd olduğuna baxmayaraq, bundan sonra da ölkələrimizi və xalqlarımızı birləşdirəcək".

# Milli Məclisin Səhiyyə komitəsi iş planını açıqladı




**Yanvarın 21-də Milli Məclisin Səhiyyə komitəsinin cari ilin yaz sessiyasında videokonfrans formatında ilk iclası keçirilib.**

Adalet.az-ın məlumatına görə, Komitə sədri Əhliman Əmiraslanov iclası açaraq diqqətə çatdırıb ki, iclasın gündəliyinə 2020-ci ilin payız sessiyası dövründə Səhiyyə komitəsində görülən işlər barədə hesabat və komitənin 2021-ci ilin yaz sessiyası üçün iş planı ilə bağlı məsələlər daxil edilib.

Ə.Əmiraslanov komitənin 2021-ci il yaz sessiyası üçün iş planını diqqətə çatdırıb. O bildirib ki, sessiya ərzində Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi qanun layihələrinin, Milli Məclis deputatlarının, Ali Məhkəmənin, Baş Prokurorluğun, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qanunvericilik təşəbbüsü qaydasında təqdim etdiyi layihələrin müzakirəsi, "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsinin hazırlanması nəzərdə tutulub.

Yaz sessiyasında koronavirus (COVİD-19) infeksiyası ilə bağlı ölkədəki vəziyyət və görülən tədbirlər barədə, icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar normativ-hüquqi aktlara dəyişikliklərin edilməsinə dair, optika və optikaçılıq, ürək-damar sistemi xəstəlikləri ilə bağlı dinləmələrin keçirilməsi planlaşdırılıb.

Onlayn tədbirdə komitənin sədr müavini Rəşad Mahmudov, üzvləri Kamaləddin Qafarov, Məlahət İbrahimqızı, Soltan Məmmədov, Sədaqət Vəliyeva yaz sessiyasının iş planı barədə öz fikirlərini açıqlayıblar, bəzi təkliflər səsləndiriblər.

**Deputatlar komitənin 2021-ci il yaz sessiyasının iş planını təsdiqləyiblər.**

**Nicat Novruzoğlu**

# XİN: Liviyada həbsdə olan 2 azərbaycanlı vətənə geri qayıdıb

**Liviyada həbsdə olan vətəndaşlarımız Elmixan Bağırov və Əliağa Babayev bu ilin 21 yanvar tarixində vətənə geri qayıdıb.**

Xarici İşlər Nazirliyindən Adalet.az-a verilən məlumata görə, 2016-cı ilin mart ayında Türkiyə Respublikasında qeydiyyatda olan şirkətə məxsus olan və Syerra-Leone bayrağı altında üzən gəmi Liviya-Malta-Türkiyə istiqamətində hərəkət edən zaman Liviya Dövlətinin sahil qüvvələri tərəfindən saxlanılıb və 3-ü Azərbaycan Respublikası vətəndaşı olmaqla 12 nəfərdən ibarət gəmi heyəti neft məhsullarının qaçaqmalçılığına görə 5 il müddətinə həbs olunublar.

Əfsuslar olsun ki, gəmini matrosu Elşad Hüseynov Liviyada dünyasını dəyişib.

Həbsdə olan vətəndaşlarımız - gəmi kapitanı Elmixan Bağırov və matros Əliağa Babayevin ölkəyə geri qaytarılması ilə bağlı Azərbaycan Respublikası hökuməti tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində Liviya Baş Prokurorluğunun 29 dekabr 2020-ci il tarixli qərarı ilə sözügedən şəxslər həbsdən azad edilib və müvəqqəti saxlama mərkəzinə yerləşdiriliblər.



Vətəndaşlarımızın təcili təxliyəsi üçün Xarici İşlər Nazirliyi və Azərbaycan Respublikasının İstanbul şəhərindəki Baş konsulluğu tərəfindən görülmüş zəruri tədbirlərin nəticəsində, Elmixan Bağırov və Əliağa Babayevin 2021-ci ilin 21 yanvar tarixində Tripoli-İstanbul-Bakı reysi ilə vətənə geri qayıtması mümkün olub. Təxliyə prosesi Türkiyə Respublikası və Liviya Dövlətinin yardımı, Ukraynanın əlaqələndirici fəaliyyəti və gəmi şirkətinin dəstəyi nəticəsində həyata keçirilib.

# "Altı minə qədər məhv olmuş həyat, on mindən çox əlil" - Qazinyan itkilərdən danışdı

**Ermənistanın Vahid Ermənistan Partiyasının təsisçisi Artur Qazinyan ölkəsində yaşanan faciələr barədə danışıb.**

Azvision.az xəbər verir ki, o hələ də müharibə dəhşətlərindən ayılmayan erməni cəmiyyətinin bir çox suallara cavab axtardığını bildirib.

Siyasətçi müharibənin acı nəticələri haqqında bunları deyib:

"Altı minə qədər məhv olmuş həyat, on mindən çox əlil, minlərlə itkin düşmüş şəxs.

Bir sözlə, böyük milli faciə. Bəs niyə rəqəmlər belə çox olub?

Bu qədər qurbanın qarşısını almaq, minlərlə gəncin həyatını xilas etmək olardımı?

Şübhəsiz ki, mümkün idi. O halda mümkün olardı ki, müharibəni Ermənistanın maraqlarına əsaslanan, dövlət düşüncəli hərbi-siyasi elita idarə edərdi. Sadə bir misal deyim. Hava hücumundan müdafiə sistemləri olmadığı və düşmənin super qəhrəmanı- şok yara-



dan dronlarının göydə sərbəst uçduğu təqdirdə əsgərləri hərbi texnikalar və ya avtobuslarla necə daşımaq olardı axı?

Hər hansı bir müharibə iştirakçısı və ya hərbi ekspert Ermənistan ordusundakı itkilərin böyük əksəriyyətinin düşmən PUA-larının maneəsiz əməliyyatlar keçirməsinin nəticəsi olduğunu təsdiqləyər".

Qazinyan daha sonra xatırladıb ki, müharibənin ilk günlərində minlərlə erməni könüllü dərhal cəbhə bölgəsinə göndərildi və silahlı qüvvələrin ehtiyatda olan şəxsi heyəti həftələrlə hərbi hissələrdə saxlanıldı. Real döyüşlərə hazır olmayan, hərbi qaydaları bilməyən və bir anda cəbhədə peyda olan könüllülər ordusu xaosa səbəb olurdular, çaxnaşmalarla geri çəkilirdilər. Erməni siyasi xadim Şuşa hadisələrinin bunun ən parlaq nümunəsi olduğunu iddia edib: "Şuşanın müdafiəsini kim koordinasiya edirdi? Düşmən Şuşaya necə yaxınlaşdı axı? "Qarabağ ordusu" bu şəhərin müdafiəsində iştirak etdimi? Bu suallar dəfələrlə soruşulub. Bunun ancaq bir cavabı var.

Noyabrın 5-dən 10-a kimi nə qədər qurban verdiyimiz barədə təsəvvürünüz varmı?".

Qazinyan sonra Nikol Paşinyanın bir vaxtlar Azərbaycan rəhbərləyinə sataşaraq Şuşaya dəvət etməsini də tənqid edib.

O yanğılı şəkildə sual edib:

**"Niyə bizi bu qədər ağır cəzalandırdılar, erməni analarına, bacılarına, qızlarına bu qədər ağrı və əzab verdilər. Əgər bunların hamısı 3 oktyabrda, 10 oktyabrda, nəhayət, 20 oktyabrda dayandırıla bilsəydi, indi minlərlə oğlan analarını qucaqlayacaq, ailə quracaq, övlad dünyaya gətirəcəkdilər".**

*Aqil ABBAS*

# MÜXALİFƏTLƏ OTURUB ÇÖRƏK YEMƏK CİNAYƏTDİRMİ?

**Bəli, əvvəllər bu cinayət sayılmasa da, baş vermirdi. Hətta toylarda, yaslarda müxalifətlə iqtidar rastlaşanda üzlərini yana çevirib gedirdilər. Və yaxud bir-birlərinin toylarına, yaslarına getmirdilər.**

**Amma zaman dəyişdi. İqtidar Prezident Administrasiyasının qapılarını müxalifətin üzünə açdı. Siyasi partiyalarla iş üzrə şöbə yaratdı və həmin şöbənin müdiri Ədalət Vəliyevi də özünün köməkçisi təyin elədi. Bu o deməkdir ki, şöbə müdiri birbaşa prezidentə çıxa bilər.**

**Beləliklə, iqtidarla müxalifətin dialoqu yarandı. Müxalifət liderləri istədikləri vaxt Ədalət Vəliyevlə görüşə, müəyyən problemləri qaldıra bilir, iqtidarın siyasətində hər hansı bir səhv varsa, Ədalət Vəliyevlə Prezidentə çatdıra bilir.**

**Ağa Laçınlının bir şeirində deyilir ki:**

***Doyursan qəlbimi səmimiyyətdən,***
***Bağrıma basaram kasıb daxmanı.***

**İndi bu səmimiyyətin nəticəsi o oldu ki, 44 günlük müharibədə müxalifətin 50 partiyası Dövlətin yanında oldu, Prezidentin yanında oldu.**

**"Dolu" filmində bir yer var. Birinci katibə SEKA-dan zəng edib deyirlər:**

**- Sən müxalifət kimi danışırsan.**

**Birinci katib:**

**- Burda nə müxalifət var, nə SEKA. Burda ev-eşiyini, torpağını qoruyan camaat var.**

**Heç kimə sirr deyil ki, Birinci Qarabağ savaşında müxalifətlə "SEKA" birləşə bilmədiyinə görə uduzduq.**

**Amma məhz yeni şöbənin yaranması ilə müxalifətlə iqtidar dialoqa girdi və nəticədə birləşdilər. Və Azərbaycan bu Vətən Müharibəsində qalib gəldi.**

**Burda yalnız iki partiya - AXCP və Milli Şura , bir də Müsavat kənara çəkildi. Amma bu da var ki, hər iki partiya qələbəmizi dəstəklədi, sonra xüsusilə də AXCP, yuxularına girmədiyi qələbəyə kölgə salmağa çalışdı.**

**Nə isə, özləri bilər, müxalifət bilər. Bunlar da belə fikirləşirlər... Demokratik ölkəyik, hər kəs və ya hər bir partiya öz düşündüyünü deyə bilər və necə ki, deyə bilirlər.**

**Baxıram, ABŞ-ın və Avropanın müəyyən dairələrinin maliyyələşdirdiyi TV kanalları, həm də o kanalları işlədənlər özümüzünkülərdi, bu dialoqa kölgə salmaq istəyirlər.**

**Bunu anlayışla qəbul edirəm. Çünki musiqini kim sifariş verirsə, o da oynayır. Amma o da var ki, sifarişçilərin sifariş verdiyi musiqiyə biri var "Camış bağa girdi gəl" oynayasan, biri də var "Tərəkəmə".**

**Məndə belə bir məlumat yoxdur ki, Ədalət Vəliyev hansısa müxalif partiya sədri ilə yeyib-içib. Əgər yeyib-içiblərsə, sağ olsunlar, niyə bunu qısqanırsınız?**

**Məsələn, baxıram ki, Xocalı faciəsində Ağdamı qoyub qaçan, hətta "Qrad"ları Ağdamdan çıxaran, 1993-cü il Gəncə qiyamında ordusunu başlı-başına buraxıb qaçan Daxili Qoşunların komandanı Fəhmin Hacıyev çox "ağıllı" təkliflər irəli sürür. Və ya Ramiz Yunus.**

**Çox təəssüf edirəm ki, Osman Mirzəyev kimi bu Vətəni canından artıq sevən, bu Vətənin yolunda şəhid olan bir kişinin qızı Azərbaycan dövlətçiliyinin əleyhinə kampaniya aparır.**

**Nə qədər istəsəniz də indən belə iqtidarla müxalifət arasında dava sala bilməyəcəksiniz. Ən azı ona görə ki, 44 günlük müharibədə həm müxalifət, həm də müxalifəti dəstəkləyənlər Dövlətin və Prezidentin yanında oldular və bu gün də yanındadılar. Artıq Azərbaycan bütövləşib.**

**Ac da qala bilərik, susuz da qala bilərik, kasıb da yaşaya bilərik, amma torpaqsız, Qarabağsız yaşamaq istəmirik. Problemlər də var, şəhidlərə, yaralılara münasibətdə nöqsanlar da var. Əbülfəz Elçibəy demiş, hər şeyin bir zamana ehtiyacı var. Zaman-zaman hər şey yoluna düşəcək.**

**Və biləsiniz, ay Azərbaycanın bütövlüyünü sevməyənlər, ay qələbəmizə sevinməyənlər, ay yenidən bölücülük etmək istəyənlər, erməni dəyirmanına su tökənlər, bu dövlət, bu millət Şuşaya bayrağını sancanda artıq sizin cavabınızı verdi!**

**İnşallah, ən böyük cavabı da Xankəndinə bayrağı sancanda verəcək!**

## *Azad olunmuş ərazilərimizdə dronlarla monitorinq aparılacaq*



***İşğaldan azad olunmuş ərazilərimizdə meşə və su təsərrüfatının, flora və fauna tərkibi tədqiq ediləcək, Ermənistanın Metsamor Atom Elektrik Stansiyasının nüvə tullantılarının ərazilərimizdə basdırılma ehtimalı yüksək olduğundan bu bölgənin radioekoloji monitorinqi aparılacaq.***

*AMEA Yüksək Texnologiyalar Parkından Adalet.az-a verilən məlumata görə, YTP-nin rezidentlərindən olan "AZELTECH" şirkəti tərəfindən daha bir innovativ layihə - dronların istehsalı üçün hazırlıq işləri görülür. Bu dronlardan işğaldan azad olunmuş ərazilərimizdə meşə və su təsərrüfatının, flora və fauna tərkibinin tədqiqi, eləcə də Ermənistanın Metsamor Atom Elektrik Stansiyasının nüvə tullantılarının ərazilərimizdə basdırılma ehtimalı yüksək olduğundan bu bölgənin radioekoloji monitorinqinin aparılması məqsədilə istifadə olunacaq. Hazırda dronlar üzərində sınaq işləri həyata keçirilir. Bu məqsədlə baza dronunun üzərinə ərazilərin radioekoloji monitorinqini həyata keçirmək üçün qamma və neytron detektorları inteqrasiya olunur. Real vaxt rejimində mövcud koordinatda işğaldan azad olunmuş ərazilərin radiasiya fonunun ölçülməsi nəzərdə tutulur.*

## Pentaqonun müvəqqəti idarəçiliyi ona tapşırıldı



**Devid Norkvist ABŞ müdafiə nazirinin səlahiyyətlərinin müvəqqəti icraçısı təyin edilib. Bu məlumatı ABŞ mətbuatı yayıb.**

Senat yeni müdafiə nazirini təsdiqləyənə qədər Norkvist bu vəzifənin icrasını davam etdirəcək. Məlumat üçün bildirək ki, Norkvist Trampın prezidentliyi dönəmində müdafiə nazirinin müavini olub.

Qeyd edək ki, Bayden müdafiə naziri vəzifəsinə general Lloyd Ostini təklif edib.

## Türklərə görə Çin səfirliyinin hesabı bloklandı



**Tvitter Çinin ABŞ-dakı səfirliyinin hesabını bloklayıb. Bu məlumatı "Blumberq" agentliyi yayıb. Çin səfirliyinin hesabı uyğurlarla bağlı edilən paylaşımlar ucbatından bloklanıb.**

Qeyd edək ki, səfirliyin bundan öncəki paylaşımı uyğur qadınlarla bağlı olmuşdu. Paylaşımda uyğur qadınların "uşaq doğmaq üçün maşın" olmadığı bildirilmişdi. Məhz bu ifadə Tvitter tərəfindən pozuntu olaraq qəbul edilmişdi.

## Bağdadda partlayış: 21 nəfər ölüb, 44 nəfər yaralanıb



**İraqın paytaxtı Bağdadda ard-arda törədilən iki partlayış nəticəsində 21 nəfər ölüb, 44 nəfər yaralanıb.**

Partlayış paytaxtın Tayaran meydanında yerləşən bazarda baş verib. Terrorçu-kamikadze meydanda özünü partladıb. Yaralılardan bəzilərinin vəziyyəti ağırdır. Ona görə ölənlərn sayının artacağı istisna edilmir.

## Gürcüstan Strasburq məhkəməsində Rusiyanı udub

**Avropa İnsan Hüquqları Məhkəməsi 2008-ci il müharibəsi ilə bağlı "Gürcüstan Rusiyaya qarşı" iş üzrə qərarını açıqlayıb.**

Starsburq məhkəməsi Gürcüstanın Rusiyanın avqust müharibəsi zamanı Avropa konvensiyasının bir neçə maddəsini pozması ilə bağlı tələblərini təmin edib. Qərara əsasən, Rusiya 2008-ci ilin avqustundakı müharibə zamanı gürcülərə qarşı etnik təmizləmə həyata keçirib. Məhkəmə həmçinin Gürcüstanın mövqeyini dəstəkləyərək gürcü hərbi əsirlər və mülki şəxslərə qarşı işgəncələr, qeyri-insani davranış, mülki əhalinin hüquq və azadlıqlarının pozulması, müharibə dövründə Gürcüstan vətəndaşlarının qətli ilə bağlı araşdırmalardan imtina edilməsinə görə məsuliyyətin Rusiyanın üzərinə düşdüyünü bildirib.

Gürcüstanın Ədliyyə Nazirliyi tarixi qərarın beynəlxalq-hüquqi mexanizmlərin istifadəsi ilə ölkənin ərazi bütövlüyünün bərpası və münaqişənin həllində çox önəmli vasitə olduğunu bildirib.

**MEHRİBAN**

## *Ağ evi tərk edəndə əynində Amerika markası yox idi - Melania Tramp dünya gündəmində*



***Yalnız ABŞ tarixində deyil, dünya tarixində də tayı-bərabəri görülməyən bir dörd il keçirərək dünən rəsmən prezidentlik postunu təhvil verən 45-ci prezident Donald Trampın həyat yoldaşı Melania Tramp dünya mətbuatının gündəminə bomba kimi düşdü.***

***Dörd il boyunca tez-tez geyimləri ilə gündəm olan Melania Tramp dünən Vaşinqtonu tərk edərkən qapqara bir geyim geyindi. 50 yaşlı Melanianın geyimlərinin əslində bir sərvət olduğu ortaya çıxdı.***

***Belə ki, sadəcə lüks Avropa mənşəli markalara üstünlük verən Melania Trampın geyimi İtaliyanın "Dolce & Gabbana", ayaqqabıları Fransanın "Louboutin", pencəyi isə "Chanel" firmalarına məxsus idi. Ən önəmli detal isə parçası fransız markası olan Hermesin ikonikləşmiş çantası Birkin oldu. Adını Jane Birkindən alan çantanın hal-hazırda qiyməti 45-75 min dollar arası dəyişir. Beləliklə Melania Tramp Vaşinqtondan təxminən 90 min dollarlıq geyimlə ayrılaraq gündəmi çalxaladı.***

***Dörd il əvvəl andiçmə mərasiminə dünənki geyimə oxşar bir tərzdə gəlsə də, geyindiyi mavi pencək Amerika markası olan "Ralph Lauren"-dən idi.***

***Melania Tramp Ağ evi tərk edəndən sonra sonuncu dəfə "Air Force One" təyyarəsinə mindi və Floridaya enərkən isə yenə jurnalistləri təəccübləndirməyi bacardı. O, təyyarədə geyimini dəyişmiş və rəngbərəng bir don geyinmişdi.***

***Onun təyyarədən enərkən geyindiyi bu geyimin qiyməti isə 5290 dollardır.***

***Eminquey***

# ADINI BAYRAĞA YAZDIRAN ZABİT

## O, SƏİD NOFƏL OĞLU RƏŞİDZADƏDİR

***Şəhidlər ölmür. Onlar daim qəlblərdə yaşayır, yada düşür xatırlanır. Səid Rəşidzadə kimi "Ədalət" qəzetinin bu dəfəki buraxılışında Şəhid Səid Rəşidzadənin döyüş yoluna nəzər salacağıq. Əməkdaşımız Əbülfət Mədətoğlu ilə onun döyüş yoldaşlarının söhbətini təqdim edirik.***

**-Sizi redaksiyamızda salamlamaq xoşdur. Siz şanlı Ordmuzun təmsilçiləri olaraq bizə qələbə yaşatmışısınız. Və hər kəsə sübut etmisiniz ki, Azərbaycan Ordusu dünyanın ən güclü Orduları sırasında öndədir. Bunun üçün də sizə təşəkkür edirəm. İstərdim ki, özünüzü "Ədalət" qəzetinin izləyicilərinə təqdim edəsiniz...**




**Ehtiyatda olan Baş Leytenant Raqif Baxışov:** "Cəlilabad rayon Hərbi Komissarlığından çağırılmışam. Hərbi xidmətim 1993-cü ildən başlayır. Həmin vaxt Orduda bir az quruculuq işləri aparılırdı. Tərtərdə "N" saylı Hərbi Hissədə xidmətə başlamışam. 2011-ci ildə təxris olunmuşam. İkinci Qarabağ müharibəsi başlamazdan öncə səfərbərliyə könüllü müraciət etmişdim. Oktyabrın 1-də məni çağırdılar və Ağcabədiyə apardılar. Allah rəhmət eləsin, Şəhid Səid Rəşidzadə ilə də həmin məktəbdə tanış olduq".

**Ehtiyatda olan Baş Leytenant Kazımov Elgün:** "2011-ci ildə ali məktəbi bitirib hərbi xidmətə yollandım. O zaman Müdafiə Nazirliyinin Təlim-Tədris Mərkəzində kurs keçərək "Tağım komandiri" kimi "N" saylı Hərbi Hissəyə göndərildim. Və iki il, yəni 2011-2013-cü illər də zabit kimi xidmət etdim . Döyüşdən öncə Bakı Dövlət Peşə Təhsili Müəssisəsində təlim-tərbiyə üzrə direktor müavini işləyirdim. Ailəliyəm, 3 övladım var".

**-İkinizdə zabitsiniz. Bu müharibədəki əsgər-zabit münasibətindən söhbət açaq...**

**Ehtiyatda olan Baş Leytenant Kazımov Elgün:** "Çox yüksək səviyyədə idi. Tabeçiliyimizdə olanlar kiçik qardaşlarımız sayırdıq. Hətta bizdən yaşca böyüklər də var idi. Münasibətlər çox yaxşı idi".

**-Bizim "Ədalət" qəzetinin şöbə müdiri Emin Piri də müharibədə zabit kimi iştirak edirdi. O belə bir cümlə işlətmişdi ki, biz öndə gedənlər üçün dəstək idik. Xüsusi Təyinatlılar öndə gedirdi. Lakin buna baxmayaraq hamı istəyirdi ki, öndə olsun. Yəni əsgər zabitdən qabağa, zabit əsgərdən qabağa keçməyə can atırdıs. Bunu necə xatırlayırsınız?**

**Ehtiyatda olan Baş Leytenant Raqif Baxışov:** "Bu döyüşlərdə həqiqətən, şəxsən mən geri qaçan, qorxub çəkinən görmədim . Nə də eşitmədim. Biz olan ərazilərdə belə bir şey olmadı ki, kimsə döyüşməkdən boyun qaçırsın. Həddən çox yüksək əhval-ruhiyyə vardı. İstər əsgərlərdə olsun, istər zabitlərdə. Bir nümunə deyəcəm, bir əsgərimiz vardı, Masallıdan idi. Şuşa döyüşlərində yaralanmışdı. Amma mən onu Tibb Məntəqəsinə apara bilmirdim. Deyirdi ki, getmək istəmirəm, döyüşəcəm. Belə əsgərlər vardı. Çəkinmədən, qorxmadan döyüşüb irəli getmək istəyirdilər. Fikrimizdə, ağlımızda yalnız bir şey vardı ki, irəli gedək".

**-Döyüş gedən ərazilər dağlıq zonalardır. Sizə çətin deyildi ki, o dağlardan irəliləyib keçmək?**

**Ehtiyatda olan Baş Leytenant Raqif Baxışov:** "Düzdür, fiziki cəhətdən çətin idi. Amma buna baxmayaraq döyüş anında , sanki Allahdan bizə bir güc, bir qüvvə gəlirdi".

**Ehtiyatda olan Baş Leytenant Kazımov Elgün:** "Raqifdən fərqli olaraq mən dağda böyüşüməm. Xidmətimin 1-ci mərhələsində, 2011-2013-cü illərdə də məhz Murov istiqamətində xidmət eləmişəm. Mənim üçün dağlıq ərazidə hərəkət eləmək çətin deyildi. Eyni zamanda ,silah-sursat və digər təminatlarda heç bir problemimiz yolmadığından yalnız düşməni ərazilərimizdən qovmaq və Qələbə barədə düşünürdük".

**-Bir anlıq gözünüzün önünə gətirin ki,, gələcəkdə babasınız və nəvələriniz sizdən bu müharibə ilə bağlı sorğu-sual edir. Nələri danışarsınız nəvələrinizə?**

**Ehtiyatda olan Baş Leytenant Kazımov Elgün:** "Bizim axırıncı tapşırığımız var idi. Şuşa istiqamətində 2 dəfə uğursuz həmləmiz olmuşdu, lakin 3-cü dəfə həmin ərazini götürdük. Orada hər tərəfimiz düşmən idi. Bir müddət mühasirə vəziyyətində qaldıq. O anları unuda bilmirəm. Orada Şəhid olan yoldaşlarım yadımdan çıxmır və çıxmayacaq... Onların hər biri bir nağıl qəhrəmanıdı".

**-Səidlə bağlı xatirələrinizdən söhbət açaq...**

**Ehtiyatda olan Baş Leytenant Raqif Baxışov:** "Səid ehtiyatdan könüllü gəlsə də, o , necə deyərlər həqiqi , yüksək peşəkarlıq olan hazırlıqlı zabit idi. Elə zazbitlər az olur. Qısa bir müddət ərzində çox adam tərəfindən tanındı. İşinə aid oldu, ya olmadı, çalışırdı. Məsələn, Ağcabədidə silah-sursat paylanan zaman gedib sursat paylayanlara qoşulub köməkliklər edirdi. Qismətdən Elgün, Səid və mən bölünmə zamanı eyni tabora, eyni bölüyə düşdük. Hər tağımın komandiri birimiz olduq. Səid Vətənpərvər gənc idi. O həm də , Aprel döyüşlərində iştirak etmişdi, buna görə də bizdən fərqli olaraq nələri etmək olar, nələri yox, bunları çox gözəl bilirdi.İndi də çöhrəsi gözümün önündədir...

Günü yadımda deyil, Oktyabr ayında Şəhid oldu. Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid oldu. Səidin Şəhidlik məqamına yüksəlməsi çox fərqli oldu. O özü




ilə qoltuq cibində bir Bayraq gəzdirir di və hamıya da demişdi ki, onu azad etdiyi torpağa sancacaq. Hadrut istiqamətində ərazini alıb düşmənin bayrağını endirərkən erməni snayperi tərəfindən vuruldu".

**Ehtiyatda olan Baş Leytenant Kazımov Elgün:** "Mənim də Səidlə tanışlığımız Ağcəbədidə oldu. Bu məqamlara Raqif toxundu. Səid ünsiyyətcil bir insan idi. Hamı ilə münasibət qurardı. Əslində kadr zabit olduğunu bilmirdim. Sonradan bildim ki, kadr zabitdir. Çox mehriban insan idi. Döyüş vaxtı deyirdi ki, Tarqovuda kafe götürmüşəm, oranı işlədirəm. İnşaAllah müharibə bitsin, orada hamınıza qonaqlıq verəcəm. Təəssüf edirəm ki, qismət olmadı. Nizamlı, intizamlı zabit idi. Yaşının gənc olmasına baxmayaraq seçilən kadrlardan idi".

**Ehtiyatda olan Baş Leytenant Raqif Baxışov:** "Səidin nizam-intizamlı olması ilə bağlı bir şeyi deyim. Ağcabədidə olanda əsgərlərə demişdi ki, sabah hər kəs üzünü qırxsın. Çağırışçılar idi, eləsi vardı, üzü tüklü gəlmişdi, eləsi vardı, qırxmırdı. Lakin Səid demişdi ki, biz hərbçiyik, forma geyinmişik və üzümüzü də qırxmalıyıq. Dedi, sabah mənim üzümdə tük görməyəcəksiniz. Açığı məndə maraq yarandı ki, üzündə sızaqlar vardı, görəsən, üzünü qırxa biləcək özü?! Həqiqətən də, sabahı üzü tərtəmiz idi. Özünə qarşı da tələbkar idi. Onun kimi oğullar həmişə seçiliblər...Təssüf edirəm ki, zabit dostumuz sinəsində gəzdirdiyi bayrağı özü öz əli ilə həmin yüksəkliyə sanca bilmədi...Amma Səid özü bayrağı sanca bilməsə də , onun üstündə daşıdığı bayraq dostları tərəfindən aldığımız əraziyə sancıldı".

**Söhbətə telefonla qoşulan mayor Rəhimov Hacı:** "Allah Səidə rəhmət eləsin. Səid müharibənin 5-ci günündən bizimlə birlikdə oldu. Mənə deyəndə ki, könüllü gəlmişəm, Vətənimizin azadlığı uğrunda vuruşmaq istəyirəm, o andan bildim ki, Səid mərd, cəsur bir gəncdir. Döyüş tapşırıqlarını yerinə yetirərkən demək olar ki, Səidlə bir yerdə olduq. Səid zabit kimi bizim Orduda xidmət edirdi. Səid, onun dostları döyüş tapşırıqlarını ləyaqətlə yerinə yetirən insanlardır. Tabor komandiri idim onların.

Səid heç nədən qorxmayan, çəkinməyən bir gənc idi. Neçə dəfə ona xəbərdarlıq etmişdim ki, ehtiyatlı ol. Həmişə mənə deyirdi ki, komandir, Vətən sağ olsun, borcumuzdur. Borcumuzu yerinə yetiririk. Allah ona qəni-qəni rəhmət eləsin. Hadrut istiqamətində yüksəklikləri təmizləyə-təmizləyə irəliləmişik Səidlə. Orada düşmənin bir neçə postu qurulmuşdu ki, həmin postlardan düşmən bizim qoşunların hərəkətini görürdü. O yüksəkliklər təmizlənməsəydi Hadruta giriş mümkün deyildi. O yüksəklikləri təmizləyərkən böyük bir qarşıdurma oldu. Səid düşmənin bayrağını endirmək istəyəndə snayper gülləsinə tuş gəldi.

Biz Səidin qisasını aldıq. Orada dalğalanan üçrəngli bayrağımızın üzərinə Səidin adı yazılıb. Onun döyüş yoldaşları mənim rəhbərliyimlə Səidin adını yazdılar və aldığımız postdan asdılar. Allah şəhidlərimizə rəhmət eləsin. Onların qanı bahasına biz torpaqlarımızı azad etdik".

...Bəli, həmsöhbət olduğumuz zabitlərimiz Səhidlik zirvəsinə ucalmış Səid Nofəl oğlu Rəşidzadə barəsində ürəklə, həm də kövrəldiklərini gizlətməklə danışdılar...Biz Böyük VƏTƏN savaşının həm aprel , həm də son döyüşlərinin iştirakçısı olan igid zabitimizi bir az da yaxından tanıdıq...Və istədik ki, onu siz də tanıyasınız!..

**Söhbəti qələmə aldı:**
**Rövşən Tahir**

# "Eliş" ləqəbli narkotacir saxlanıldı, 300 min manatlıq narkotik aşkarlandı

**Gəncə şəhər Baş Polis İdarəsinin (ŞBPİ) Cinayət Axtarış İdarəsininin əməkdaşları tərəfindən narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması istiqamətində növbəti uğurlu əməliyyat tədbiri həyata keçirilib. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Gəncə regional qrupundan Adalet.az-a verilən məlumata görə, şəhər sakini Etibar Yaqubov saxlanılaraq ŞBPİ-yə gətirilib və üzərinə baxış keçirilən zaman 76 qram narkotik vasitə olan "marixuana" aşkar edilərək götürülüb.**

Aparılan araşdırmalar zamanı həmi E. Yaqubova narkotik vasitə satan şəxsin Gəncə şəhər sakini "Eliş" ləqəbəbi ilə tanınan Eldəniz İmanlı olduğu müəyyən edilib.

E. İmanlıya və bibisinə məxsus şəhər ərazisindəki fərdi yaşayış evlərində keçirilən əməliyyat-axtarış zamanı 11 qutuda, ümumi çəkisi 32 kq və qarabazarda satış dəyəri 300.000 manat olan qurudulmuş "marixuana" aşkar edilərək götürülüb.

**İlkin dindirilmə zamanı E. İmanlı narkotik vasitənin toxumunu bir neçə il bundan əvvəl Gürcüstan Respublikasından gətirdiyini və satmaq üçün ötən ilin mart ayında əkərək ona qulluq etdiyini bildirib. Saxlanlın şəxslər maddi sübutlar ilə birlidə istintaqa təhvil verilib. Faktla bağlı Gəncə ŞBPİ-nin İstiq və Təhqiqat İdarəsində cinayət işi başlanılıb araşdırmalar davam etdirilir.**

*Əbülfət MƏDƏTOĞLU*

# BAYRAM SƏFƏROV ŞUŞAYA NİYƏ GETMƏYİB?!

**8 noyabrda təkcə Azərbaycanın yox, eləcə də Türk dünyasının mədəniyyət paytaxtı Şuşa işğaldan azad olundu. Və azad olunduqdan sonra da Şuşada polis şöbəsi açıldı, DTX-nın rayon şöbəsi açıldı. Və eləcə də müxtəlif sənət adamları Şuşaya səfər etdilər və Şuşada əsgərlərimizə konsert verdilər.**

**"Azərişıq" bütün çətinliklərə baxmayaraq, qısa bir zamanda Şuşanı elektriklə təmin elədi.**

**"Azərsu" ən ağır şəraitdə Şuşaya gələn su kəmərlərini bərpa elədi.**

**Qalıb qaz məsələsi, onu da bu gün-sabah "Azəriqaz" həll edəcək.**

**Ən çətin iş "Azəravtoyol"un üstünə düşürdü və çox xoşdur ki, "Azəravtoyol" da bu işin öhdəsindən gələ bildi və Füzulidən Şuşaya olan yolu açdı. Və Möhtərəm Prezidentimiz də ailəsi ilə birlikdə bu yolla özü sükan arxasında keçib getdi Şuşaya və Şuşada bayrağımızı qaldırdı. Və tezliklə həmin yol dünya standartlarına uyğun istifadəyə veriləcək.**



**Baxıram, bu gün həm mətbuatda, həm saytlarda, həm də sosial şəbəkələrdə ən çox tənqid olunan Şuşa Rayon İcra Hakimiyyətinin başçısı Bayram Səfərovdur ki, niyə indiyədək Şuşaya getməyib?! Və ən çox döyülən də, söyülən də Bayram Səfərovdur.**

**Bayram Səfərovu döyənlərin də, söyənlərin də müəyyən məsələlərdən məlumatları yoxdur.**

**Bayram Səfərov Şuşa rayon, daha dəqiq, Şuşa Şəhər İcra Hakimiyyətinin başçısıdır, dövlət məmurudur. O, özbaşına deyil ki, istədiyi vaxt Şuşaya getsin.**

**Bilməyənlər üçün bildirim. Hər hansı bir rayonun icra başçısı qonşu rayonun ərazisinə keçirsə, mütləq Prezident Administrasiyasından icazə almalıdır.**

**Məsələn, deyək ki, Ağcabədinin icra başçısı gəlib Bayat kəndinə və istəyər ki, ordan getsin Ağdamın Mahrızlı kəndinə ki, ordakı dağıntılarla tanış olsun. Mütləq Administrasiyaya zəng edib icazə almalıdır.**

**Sözgəlişi. Sovet vaxtı da belə idi.**

**İndi niyə Bayram Səfərov bugünədək Şuşaya getməyib? Bununla bağlı Bayram müəllim bir açıqlama verib, çox təəssüf ki, açıqlama tam deyil. Çox istərdik ki, ya Bayram Səfərov, ya da onun mətbuat xidməti bu barədə ayrıca açıqlama versin.**

**Şuşanın icra başçısını tənqid etmək istəyirsizsə, bütün nazirlərin, komitə sədrlərin, icra başçıların yol verdiyi nöqsanları təbii ki, Bayram Səfərovun fəaliyyətində də tapmaq olar, buyurun, tapın və tənqid edin. Amma onun niyə Şuşaya getmədiyi tənqid mövzusu deyil . Nə vaxt dövlət deyəcək, onda da gedəcək. Nə vaxt dövlət Şuşa İcra Hakimiyyətinin Şuşaya köçürülməyini bildirəcək, onda da Şuşa İcra Hakimiyyəti Şuşaya köçürüləcək.**

**Cənab Prezident yeni bir fərman imzaladı - işğaldan azad olunmuş rayonlarda prezidentin xüsusi nümayəndələrinin təyin edilməsi. Həmin xüsusi nümayəndələr həmin rayonlarda icra başçısımı olacaq, yoxsa başqa şəxslər, bunu da bu günlərdə öyrənəcəyik və onların səlahiyyətlərini də biləcəyik.**

**İnşallah, bir az səbr edin, hər şey aydınlaşacaq.**

**Yeri gəlmişkən, Cəbrayılın, Qubadlının, Zəngilanın, Laçının, Kəlbəcərin, Xocalının və sair və ilaxır başçıları həmin rayonlara gediblərmi?! Təbii ki, yox.**

**Darıxmayın, hətta icra başçısı olmayan Xankəndinin tezliklə icra başçısı və ya xüsusi nümayəndəsi təyin olunacaq və o da gedib Xankəndində oturacaq.**

**Sonda. Mən hərbi jurnalist kimi Vaqif Cəfərovla da işləmişəm, Mikayıl Gözəlovla da, Nizami Bəhmənovla da. Üçünün də yeri behiştdi. Hər bir şuşalı Şuşadan ötrü canını verməyə hazır idi və verdilər. Ramiz Qəmbərov vurulanda da Şuşadaydım, Tofiq Oğuz da vurulanda Şuşadaydım, ona görə Şuşanı tanımayanlar və bilməyənlər xahiş edirəm, şuşalılar adından danışmasınlar.**

## *Peyvənd olunanlar spirtli içki və siqaretdən uzaq durmalıdır?*



**Türkiyəli professor, həkim Hakan Oğuztürk COVID-19 xəstliyi və ağırlaşmalarına görə spirtli içki qəbulunun ciddi risk daşıdığını deyib.**

DHA məlumat verir ki, o spirtli içki qəbulunun peyvəndin təsirini azaltığını bildirib. "Peyvənd şübhəsiz ki, immunitet sistemində virusa qarşı güclü immun mexanizminin meydana gəlməsinə səbəb olacaq, lakin təəssüf ki, alkoqol mənfi təsir göstərir və peyvəndin təsirini azaldır. Spirtli içki təkcə COVID-19-a qarşı yox, bütün peyvəndlərə mənfi təsir göstərir".

Professor deyib ki, peyvənd edilməzdən 10 gün əvvəl və bir ay sonra qəti şəkildə spirtli içki qəbul etmək olmaz.

O bildirib ki, siqaret çəkmək də peyvəndin təsirini azaldır. Siqaret həm anticismin, həm də immunitetin yaranmasına maneə törədir.

### Erməni KİV: "Paşinyan hakimiyyəti müharibənin başlayacağını bilirdi"



*Ermənistan hakimiyyəti müharibənin başlayacağı günü bilirdi. Azvision.az xəbər verir ki, bu barədə "Politik.am" nəşri yazıb. Qeyd edilib ki, hakimiyyət 27 sentyabrda başlayan müharibə şəraitini gizlətmək üçün hər şey edir. Hansıki bu, cəmiyyəti yuxudan oyadacaq və məğlubiyyətin yeganə günahkarının mövcud rəhbərliyinin olduğunu sübut edə biləcək.*

*"Bu müharibə ilə bağlı ən böyük səhv düşüncə, hakimiyyətin onun başlamasını bilməməsi ilə bağlıdır.*

*Reallıq ondan ibarətdir ki, artıq 23 sentyabrda Ermənistan baş qərargahının kəşfiyyatı müharibənin 27 sentyabrda başlayacağı barədə məlumat verib, hətta vaxtı da məlum idi.*

*Bu məlumatların fonunda Azərbaycan Silahlı Qüvvələrinin hava hücumundan müdafiə sistemlərimizi necə məhv etməsi aydın deyil, kazarmadakı yüzlərlə əsgərin öldürülməsi necə baş verdi? Müharibədən xəbərdar olan hərbi-siyasi rəhbərlik Azərbaycan Ordusunun ilk zərbəsinin qarşısını əks hücumla almaq mümkün olmasa belə, onun bu dərəcədə ölümcül olmaması üçün niyə addım atmadı?*

*Artıq hakimiyyətin müharibə şəraiti ilə bağlı açıq və şəffaf istintaqdan niyə çəkindiyi aydındır. Bu vəziyyətdə Milli Təhlükəsizlik Xidmətinin o zamankı rəhbəri Arqişti Kyaramyan, keçmiş müdafiə naziri David Tonoyan, baş qərargah rəisi Onik Qasparyan və baş nazir Nikol Paşinyan bir çox xoşagəlməz suallara cavab verməli olacaqlar ki, bunun da cinayət nəticələri ola bilər".*

# Binəqədi Rayon İcra Hakimiyyətindən açıqlama

**"İcra başçısının "5 şəhid məzarının üstünü götürməlisən" tələbini rədd edən sahibkarın obyekti dağıdıldı" başlıqlı xəbərə Binəqədi Rayon İcra Hakimiyyətinin mövqeyi aşağıdakı kimidir:**



Vətəndaş Rəşid Əmirlinin iddiasi ilə əlaqədar olaraq bildiririk ki, AR Şəhərsalma və Arxitektura Komitəsinin 23 sentyabr 2020 tarixli 04\02-1963 saylı məktubu ilə Binəqədi rayonu, Biləcəri qəsəbəsindəki 10 may küçəsinə gedən yolda, qəbirtsanlığın hasarına bitişik (qaz xəttinin mühafizə zolağında) 30 kv.metr sahədə metal konstruksiyalardan quraşdırılma işlərinin və 150 kv.metr sahədə betonlanma işlərinin qanunsuz aparılmasının müşahidə olunması barədə məlumat daxil olmuşdur. Yerli səviyyədə şəhərsalma nəzarətinin təmin edilməsi və qanunsuz zəbt etmənin qarşısının alınması ilə bağlı yerində tərtib edilmiş akt RİH-nə göndirilmişdir. R.Əmirli tərəfindən torpağa dair hüquqmüəyyənedici sənədlər təqdim edilməmişdir.Vətəndaşa özbaşına quraşdırılmış metal konsturksiya işlərinin dayandırılması və sahənin əvvəlki vəziyyətinə qaytarılması tövsiyə edilməsinə baxmayaraq, müxtəlif bəhanələrlə imtina edərək, əssasız iddalar irəli sürmüşdür.

Məlumat üçün bildiririk ki, müvafiq qaydaların tələblərinə uyğun olaraq özü tərəfindən qanunsuz şəkildə quraşdırılmış metal konstruksiyalar sökülmüşdür. 12 yanvar 2021 tarixində vətəndaş Rəşid Əmirli Rayon rəhbərliyi tərəfindən qəbulda olarkən ona qanunvericiliyin tələbləri izah olundu və vətəndaş gələcəkdə müvafiq qanunvericiliyin tələblərinə əməl edilməsinə söz verdi.

Odur ki, Rayon icra hakimiyyətinin vəzifəli şəxsləri tərəfindən İddia olunan "5 şəhid məzarının üstünün götürülməsi" tələbi isə həqiqəti əks etdirmir.

# Ağ Ev Baydenin Putinlə danışmaq imkanlarını qiymətləndib

**ABŞ prezidenti Co Baydenin Rusiya prezidenti Vladimir Putinlə telefon danışığı aparmaq planı yoxdur. Bu barədə Ağ Ev məlumat yayıb.**

Amerikan liderinin mətbuat katibi Cen Psakinin sözlərinə görə, yeni dövlət başçısı ilk telefon danışığını Kanadanın baş naziri Castin Tryudo ilə aparacaq.

Psaki qeyd edib ki, baş nazirlə telefon əlaqəsi zamanı Kanada ilə münasibətlər müzakirə olunacaq və Bayden iki dövlətin sərhədlərində Keyston XL boru xəttinin tikintisinin bərpa ediləcəyini bildirəcək.

Bu günədək Rusiya və ABŞ liderləri arasında heç bir əlaqə olmasa da, Vladimir Putin 15 dekabrda Baydeni ABŞ-ln prezidenti seçilməsi ilə əlaqədar təbrik etmişdi. Rusiyanın Birləşmiş Ştatlarındakı səfiri Anatoli Antonov bildirib ki, Rusiya xarici siyasətinə ABŞ- ın 46-cı prezidenti Co Baydenin komandasının əməldə gösdərdikləri yanaşmalara görə aparacaq, ritorikalara görə yox.



Amma Vaşinqtonun hazırki siyasəti heçdə ürəkaçan gözləntilərdən xəbər vermir. Səfir hesab edir ki, Rusiyaya qarşı amerikan siyasətində dəyişikliklərin olacağı gözlənilmir.

Antonov qeyd efib ki, "bütün bunlara baxmayaraq rusiyalı diplomatlar mütamadi olaraq Ağ Ev aparatı ilə əlaqələrini saxlamağa çalışacaqlar".

**"Rusiya üçün ABŞ -ın yeni prezidenti Co Bayden əvvəlki prezident Donald Trampdan da çətin opponentdir. Çünki o, Vaşinqtonla əməkdaşlıq etməyən dövlətlərə qarşı daha radikal mövqedədir"- deyə Rusiya Federasiya şurasının beynəlxalq əlaqələr komitəsinin rəhbəri Konstantin Kosaçev bildirib.**

**Rüstəm Hacıyev**

# Bir daha Tofiq Həsənov haqqında

***Qəzetimizin 07 yanvar 2021-ci il tarixli sayında dərc olunmuş "Görkəmli jurnalist, ləyaqətli insan Tofiq Həsənov" adlı məqalə oxucular tərəfindən rəğbətlə qarşılanmışdır. Məqaləni oxuyanların bir çoxu redaksiyaya telefon açıb, məktub göndərib 38 il əvvəl dünyasını dəyişib əbədiyyətə qovuşmuş görkəmli jurnalist haqqında yazdığı dərin məzmunlu məqaləyə göə müəllifə və baş redaktor başda olmaqla qəzetin bütün kollektivinə təşəkkür edir. Həmin məktublardan ikisini dərc edirik.***

### Onu hamı tanıyırdı

*"Ədalət" qəzetinin baş redaktoru*
*İradə xanım Tuncaya*

**Hörmətli İradə xanım, qəzetinizin 7 yanvar 2021-ci il tarixli sayında "Görkəmli jurnalist, ləyaqətli insan Tofiq Həsənov" adlı məqaləni oxuyanda çox şad oldum, həm də çox kövrəldim. 55-60 il bundan əvvəl mənim də işlədiyim "Leninçi" qəzetində keçirdiyimiz ağrılı-acılı o günlər bir kino lenti kimi gözlərim önündə canlandı. Müəllifin yazdığı kimi Tofiq Həsənov həqiqətən böyük jurnalist, cəsarətli və ləyaqətli insan idi. O vaxt mən də "Leninçi" qəzetində, Tofiq Həsənovun baş redaktor, Asif Quliyevin müdir olduğu şöbədə ədəbi işçi kimi çalışırdım. "Leninçi" fəaliyyətə başlayandan az sonra o, məni əvvəl mətbəədə işə götürdü, sonra ədəbi işçi, şöbə müdiri oldum. Daha sonra baş redaktorun müavini, Rayon Partiya Komitəsinin şöbə müdiri vəzifələrində işlədim. Bütün bu uğurlarıma görə ona, Tofiq Həsənova borcluyam. O, əsl müəllim idi.**

O illərdə keçirdiyimiz o çətin günlər doğrudan da bir tarix idi. Tofiq Həsənovun rəhbərliyi ilə çıxardığımız qəzetin hər sayı əl-əl gəzirdi. Məqalədə göstərildiyi kimi, qəzetin hörməti artdıqca, xalq tərəfindən sevildikcə rayon rəhbərliyinin də qəzetə qısqanclığı artırdı. Bu barədə "Qızıl ömrün əlvan sətrləri" adlı kitabımda müəyyən epizodları göstərmişəm. Öz tənqidi yazıları ilə fərqlənən Vaqif Hüseynovun, Asif Quliyevin necə təqib olunduqlarının və bütün lənkəranlıların onları şərdən, böhtandan necə qoruduqlarının canlı şahidi olmuşam.

Məqalədə göstərildiyi kimi o illərdə bir çox jurnalistlərin, eləcə də mənim ərsəyə gəlməyimdə Tofiq müəllimin əməyi çox olub. O, "letuçka"larda, yazdığımız məqalələri redaktə etdikdən sonra hər dəfə bizə jurnalistika sənətkarlığı haqqında məsləhətlər verir, nəyi necə yazmağı tövsiyyə edirdi. Redaksiyaya göndərilənn yazılarda müəllifin dəst-xəttini saxlamağı, gənclərə qarşı diqqətli olmağı hamımıza dönədönə tapşırardı.

Məqalədə qeyd olunduğu kimi bu gün Azrbaycandan kənarlarda da əsərləri sevilə-sevilə oxunan, görkəmli yazısı, ictimai xadim Hüseynbala Mirələmovun hələ şagird vaxtı yazdığı hekayələri də, məqalələri də məhz Asif Quliyevin, Tofiq Həsənovun köməyi ilə "Leninçi"də dərc olunurdu. O vaxt balaca Hüseynbalanın yazılarına qəzetdə yaşıl işıq yandırılmışdı. Redaksiya ilə daim əlaqədə olan Hüseynbala müəyyən tədbirlərə, xüsusilə oxucularla keçirilən görüşlərə redaksiya işçiləri ilə birlikdə gedərdi. Elə buna görə də Lənkəranda Hüseynbalaya "Leninçi"nin balası deyirdilər.

Hörmətli İradə xanım, qəzetinizdə belə bir məqaləni dərc etməklə Lənkəranın müəyyən bir dövrünün tarixini yada salmısınız, Tofiq Həsənov kimi görkəmli bir jurnalistin ömür yolunu vərəqləmisiniz. Tarixi bir roman kimi oxunan məqalə yazdığına görə bir vaxtlar "Leninçi"də birlikdə işlədiyimiz Asif Quliyevə və "Ədalət" qəzetinin kollektivinə Lənkəranın ağsaqqalları və yaşlı jurnalistləri adından təşəkkür edirəm.

**Hörmətlə: Ramiz Hüseynov**
**Veteran jurnalist**
**Lənkəran şəhəri**

### Mən qəzetə borcluyam

*"Ədalət" qəzetinin təsisçisi,*
*Milli Məclisin deputatı Aqil Abbasa*

**Hörmətli Aqil müəllim, əvvəla Sizi salamlayıram. Qarabağla, qazanılan qələbələr ilə bağlı yazdığınız məqalələrə, atdığınız addımlara görə üç min beş yüzdən çox əhalisi olan kəndimizin adamları adından sizə çox sağ olun! deyirəm.**

Aqil müəllim, mənim 85 yaşım var. Sizin qəzetinizdə dərc olunan "Görkəmli jurnalist, ləyaqətli insan Tofiq Həsənov" adlı məqalədə adı çəkilən Səadət Tağıyev mənəm. Tofiq Həsənovu da, Asif Quliyevi də yaşlı nəslin lənkəranlıları yaxşı tanıyırlar və hamının onlara böyük hörməti var. Asif müəllim "Leninçi"də işlədiyi az vaxtda öz maraqlı oçerkləri, duzlu və kəsərli felyetonları ilə bütün lənkəranlıların dərin hörmətini qazanmışdır.

O illərdə bir çoxs ədalətsizliklərin qarşısının alınmasında, şərdən, böhtandan qurtarmasında bir jurnalist kimi Asif Quliyevin xidməti çox olub. O cür şərdən, böhtandan qurtaranlardan biri də mən olmuşam. Sizin qəzetinizdə göstərildiyi kimi məhz qəzetin təkidi ilə üstümə atılan böhtanları araşdırmaq üçün Lənkəran rayon Partiya Komitəsininn yeni seçilən birinci katibi İsa Məmmədov kəndə gəldi, hər şeyi özü aydınlaşdırdı. Bununla da şərdən, böhtandan qurtardım. Uzun müddət sovxoz direktoru işlədim, Əməkdar kənd təsərrüfatı işçisi adına layiq görüldüm, orden və medallarla təltif olundum. Bütün bunlara görə qəzetə və qəzet işçilərinə borcluyam.

**Səadət Tağıyev**
**Lənkəran rayonu,**
**Separadi kənd sakini**

# Ölümü ilə bağlı müəmmalar çözülməyə başladı

## Rəssamın önündə dünyasını dəyişən ABŞ prezidenti

***1945 -ci il aprelin 12-i cümə axşamı günorta saat 17:45-də CBS radio şəbəkəsi "Səhra Yolu" adlı növbəti radioserialını efirə verməyə başlayır. Ancaq dörd dəqiqə sonra həmin illərin məhşur radio şərhçisi Con Dalinin səsi eşidilir. O deyir:***

**- Biz CBS xəbərlər xidmətinin təcili məlumatını vermək üçün programımızı kəsirik. Ağ evin mətbuat xidməti elə indicə xəbər verir ki, prezident Ruzvelt vəfat etmişdir.**

Dünya agentlikləri xəbəri bir an içində bütün dünyaya yayırlar. Birinci xəbərdən iki dəqiqə yarım sonra Dali yenidən eifrə çıxır.

**- Prezident beyninə qan sızmasından vəfat etmişdir Hələik yalnız bu məlumdur ki, prezident Corciya ştatında, Uorm-Springsdə vəfat etmişdir. Son bir neçə gündə o paytaxtda deyildi. Hər həftənin çərşənbə axşamı keçirilən ənənəvi mətbuat konfransı təxirə salınmışdı. Bu sarsıdıcı xəbər bizim milli siyasətimizə və müharibəyə dərindən təsir göstərəcəkdir.**

Sonra Mrs. Elanora Ruzvelt vitse-prezident Trmeni Ağ evə dəvət edib ərinin ölümü barədə məlumat verir.

Kabinet dərhal yığışdırılır. Mrs. Ruzvelt admiral Mark İntayr ilə Vaşinqtondan Uorn-springsə yola düşür. Dəfn mərasimi Ağ evin Şərq salonunda olacaqdı və Prezident "Hyde Park"da dəfn ediləcəkdi

### CBS radiostansiyasının

***digər şərhçisi Bill Herninin məlumatına görə, Prezidentin portretini çəkdirmək üçün rəssam qarşısında oturaq vəziyyətdə huşunu itirməsi və iki saat sonra ölməsi prezidentin ölümündən dərhal sonra 1945-ci il aprelin 18-də işıq üzü görmüş "Franklin Ruzveltin xatirəsi" kitabından götürülüb. Burada dəfnin alincənab şəkildə və ləyaqətlə keçirildiyi görünür. Ancaq başa düşülməyən bir neçə qəribəliklərə fikir vermək lazımdır.***

Kitabı dövlət xadimlərinin, diplomatların, jurnalistlərin, məmurların və hətta sadə adamların nitqləri və fikirləri ilə dolduran tərtibçilər nəyə görəsə gözləri qarşısında Ruzveltin öldüyü rəssamdan heç nə soruşmamış və hətta onun adını da çəkməmişlər. Ölüm haqqında tibbi rəy də çap edilməmişdi.

### Ruzveltin şəxsi həkimi

admiral Mark İntayrın fikri heç bir yerdə göstərilməsə də, onun ailəsi ölümün səbəbinin aydın olduğunu hesab etdilər. Tabutun açılmasına icazə verməmiş kapitan Paulin və Mrs. Ruzveltin özünün davranışı isə qəribə idi:

Cənazə duası bağlı tabut qarşısında oxunmuşdu. Bütün bunlar prezidentin həyatının son saatları ilə bağlı hansısa müəmmanın olduğunu ehtimal etməyə bizi məcbur edir. İndi bu sirr bir qədər açılmağa başlayır. Franklin Ruzveltin ölümündən iyirmi il sonra onun həyatdan getməsinə aid bir çox versiyalar ortaya çıxır.

***Yalta konfransından sonra, Ruzvelt başda olmaqla, Amerika nümayəndə heyəti Misirə uçur, "Kunsi" ağır kreyseri gözləyirdi. Prezident bu gəminin göyərtəsində 1945-ci il fevralın 12, 13 və 14-də Yaxın Şərq ölkələrinin üç liderini - Misir Kralı Faruku, Efiyopiyanın imperatoru Hayle Selasiyeni və Səudiyyə Ərəbistanının kralı İbn-Səudu qəbul edir.***

### Prezidentin oğlu Elliot

öz xatirələrində öz ölkərinin hüdudlarından kənara birinci dəfə - Ruzveltlə görüşmək üçün xüsusi olaraq çıxmış bu məhşur monarxlarla atasının danışıqlarını təsvir edib.

***"Səudiyyə Ərəbistanı kralı Amerika hərbi gəmisinə gəldi, gəminin göyərtəsində ona çadır qurulmuşdu. Zahirən sadəlövh görünən kralın incə siyasətçi və sarsılmaz iradəyə malik adam olduğu məlum oldu".***

Ruzveltin özünün etirafına görə, kralla söhbət ona çox az məmnunluq vermişdi.

Əslində prezident Avropa ölkələrindən qovulmuş on minlərlə yəhudinin Fələstin ərazisində yerləşdirəyə razılıq verməsinə İbn-Səudu inandırmaq istəyirdi. Ancaq İbn-Səud bu təklifə qəti şəkildə "yox" cavabını verir. O, bildirir ki, Fələstində "yəhudilərdən ibarət olan, təpədən dırnağa qədər silahlanmış, almanlarla vuruşmaq istəməyən, açıq şəkildə ərəblərə qarşı yönəlmiş ordu artıq vardır". Danışıqların sonrakı gedişatında kral prezidentə guya belə deyib:

"Sizin yəhudilər haqqında iki dünya müharibəsindən sonra ehtimal etməyə başladıqlarınızı, biz ərəblər artıq iki min ildir ki bilirik".

Ruzvelt bu məlumatlardan heyrətə gəlmişdi. Prezidentin sözlərinə görə, onun Fələstin haqqında İbn-Səuddən beş dəqiqədə öyrəndiyi, bütün əvvəlki həyatı ərzində öyrəndiyindən artıq idi. Bəzi tarixçilərin fikrinə görə, prezident öz həyatını



təhlükə altında qoyan bəyanat vermişdi:

"O, İbn-Səuda söz vermişdi ki, ABŞ prezidenti ərəb xalqının əleyhinə olan heç bir hərəkət etməyəcək".

Prezidentin hansısa gizli şərti pozmasının və təhlükəli yola qədəm qoymasının birinci əlaməti Harri Hopkinsin davranışı olur. Amerikanın böyük siyonisti Bernard Baruxun tövsiyəsi ilə Ruzveltin özünə köməkçi götürdyü bu adam, on il ərzində prezidentə sədaqət və düzlüklə xidmət edərək, onun ən incə tapşırıqlarını yerinə yetirir. Bu sədaqətli xidmətin təminatı Hopkinsin dediyi kimi, Ruzveltin "tamamilə-rəsmi,fərdi qaydada öz əqidəsi ilə sionizmə kömək etməyi öhdəsinə götürməsi idi".

Prezidentin İbn-Səudə verdiyi vədi eşidərkən, Hopkinsin keçirtdiyi sarsıntını təsəvvür etmək mümkün deyil!

### Danışıqları tərk edərək,

***o, kreyserdəki kayutuna çəkilmiş və üç gün sonra Əlcəzairdə düşmüş, üçüncü şəxs vasitəsilə Amerikaya başqa yolla gedəcəyi barədə prezidentə xəbər göndərmişdi. Əvvəllər prezidentin kölgəsi olmuş Hopkins onunla əlaqəsini tamamilə kəsmiş və prezidentin ölümünə qədər heç vaxt onunla görüşülməmişdi!***

Ancaq Ruzvelt sanki təhlükə hissini itirmiş və öz ölümünə doğru getmişdi. Fevralın 28-də o, Vaşinqtona gəldi. Martın 28-də İbn-Səud ona göndərdiyi məktubunda ABŞ-ın sionistlərə kömək edəcəyi halda, baş verəcək, qarşısı alınması mümkün olmayan təhlükəli nəticələr barədə xəbərdarlığını təsdiq etdi. Ruzvelt aprelin 5-də İbn-Səuda göndərdiyi cavab məktubu ilə ölüm hökmünü imzaladı. Bu məktubda o, vəd edirdi :

***"Amerika hökumətinin başçısı kimi ərəb xalqının əleyhinə yönələ biləcək heç bir hərəkət etməyəcəyəm". Bir həftə sonra o, artıq sağ deyildi...***

***"Prezidentin uzun illər davam edən xəsəliyinə baxmayaraq, onun Henri Morgentaunun müşayəti ilə getdiyi Corciya ştatınınn Uorm-Springsdəki mükündə ölümü tamamilə gözlənilməz idi. Betezda hərbi-dəniz qospitalının tibb doktoru Bryunn adlı birisinin imzaladığı ölüm haqqında şəhadətnamədə ölümün səbəbi olaraq "arterioskleroz" nəticəsində "beyinə qan sızması" göndərilmişdi. Amerikanın həm federal, həm də ştatlarının qanunları gözlənilməz ölüm hallarında-xüsusən əgə söhbət vəzifəli adamlardan gedirsə, hələ prezidenti demirik,-meyitin yarılmasını nəzərdə tutr. Bundan başqa, Amerika ənənələrinə ygun olaraq, vəfat etmiş prezidnetlərin cənazələrini vidalaşmaq üçün tabutda açıq şəkildə qoyurlar.***

***Ruzvelt vəfat etdikdə isə, nə meyit yarıldı, nə də cənazə açıq şəkildə qoyuldu. Prezidentin cənazəsi surğuclanmış tabutda Ruzveltin Nyu-York ştatında Hayd-parkdakı digər mülkünə aparılmış və burada dəfn edilmişdir. Tabutu onu açmağa cəhd edən hər kəsi güllələmək əmri almış silahlı əsgərlər müşayiət edirdi. Dəfndən sonra ,Hayd parkdakı qəbir, ola biləcək mümkün eksqumasiya cəhdinin qarşısını almaq məqsədi ilə, bir neçə ay ərzində silahlı mühafizəçilərlə qorundu".***

Artıq 1948-ci ildə E.Cozefsonun "Franklin D.Ruzveltin müəmmalı ölümü" kitabında prezidentin ölümünü təfsilatı ilə verilmişdi. Həqiqətən sensaiyalı olan bu təfsilat prezidenti əlində saxlayan yaxın ətrafdakıların məlumatları ilə təfərrüatına qədər təsdiq edilirdi. Arterisiklorez barədə diaqnoz prezidentin şəxsi həkimi, Uorm-Sprinqsdə Ruzvelti müşaiyət etməmiş, admiral dokrot Mark İntayr tərfindən təkzib edilirdi: Prezident müntəzəm olaraq müayinəsi beyin arteriyalarının sklerozunun heç bir əlamətini göstərmirdi, həkimin başlıca qayğısı prezidentin ürəyinin vəziyyəti idi

### Cozefsonun fikrincə,

prezidentin ətrafında olan adamların (xüsusən Henri Morgentaunun) meyitin yarılmasına və cənazənin vidalaşmaq üçün açıq qoyulmasına iczə verməmələrinin səbəbinə şübhə yoxdur:Uorm-Springsdə olan keşişin məlumatına görə, prezident boynunun ardına açılan atəşlə öldürülüb.

Görünür, kəllənin əks tərəfindən çıxan güllələr onun sifətini eybəcər hala salmışdı. Prezidentin arvadı Eleonora Ruzvelt cənazənin açıq qoulmasını guya "Ruzveltin ailə ənənələrinə uyğun olmaması" ilə izah etmişdir. Prezidentə "ailə ənənələrinin" tətbiq edilməli olmadığını nəzərə almasaq belə, bu fikir həqiqətə uygun deyildir: məsələn, prezidentin anası Sara Delano Rzveltin cənazəsi, oğlunun göstərişi ilə, vidalaşmaq üçün açıq qoyuluşdu. Mrs.Ruzvelt əvvəl dediyini unudaraq, 1958-ci il fevralın 8-də "Saterday Evening Post" jurnalında yazdıqları ilə öz-özünü təkzib edirdi.

Hayd-parkdakı dəfndən sonra, ertəsi gün, onun oğlu Cimminin seyfdən tapdığı prezidentin şəxsi göstərişində deyilirdi ki, öldüyü halda onun cənazəsi Vaşinqtonda Kapitoliye qoyulsun.

Onun yazdığı kimi, prezidentin ölümündən sonrasına aid bütün sərəncamların hamısı, yalnız biri istisna olmaqla, dəqiq yerinə yetirilmişdi

**Təkcə cənazənin Kapitoliyə açıq qoyulması tapşırığı "müəmmalı şəkildə" yerinə yetirilmişdi. Elenora Ruzvelt ölkəni prezidentin başı üstündən, onun adından idarə edən prezident əhatəsinin başlıca əlaltısı idi.**

**Dilimizə uyğunlaşdıran:**
**Eminquey**

### Britaniya həkimləri: Vaksinasiya zamanı irqi ayrıseçkilik vacibdir



***Britaniyanın aparıcı həkimləri COVİD vaksinasiyası zamanı irqi azlıq nümayəndələrinin prioritet qrupa daxil edilməsi barədə təklif irəli sürüblər. "İrqi azlıqların xəstəliyin təsirinə daha çox məruz qalması və bunun əksinə olaraq, daha az peyvənd olunmasını əks etdirən statistik məlumatlar bizi narahat edir". Bunu Həkimlərin Kral Kollecinin rəhbəri Martin Marşal bəyan edib. O, krallığın səhiyyə nazirliyini, etinik azlıqların qorunub saxlanılması məqsədilə, vaksinasiya zamanı irqi mənsubiyyət amilini nəzərə almağa çağırıb. Araşdırmalara əsasən, Britaniyadakı koronavirus qurbanları arasında irqi azlıq nümayəndələri iki dəfə daha çoxdur. Krallığın Asiya və Afrika mənşəli 9 - 64 yaşlı sakinləri arasında ümumi ölüm əmsalı isə digər vətəndaşlarla müqayisədə beş dəfə yüksəkdir.***

***MEHRİBAN***

# Ruhları şad laçınlılar

Mətbuatda çalışdığım illər ərzində haqqında yazı yazdığım hər bir insan mənim üçün doğmadı, əzizdi, ömrümün donmuş bir anı, bir parçasıdır. Bu yazıda haqqında söhbət açacağım şəxslər isə bir başqa dünya, bir başqa möcüzədirlər. Ürəyi, gözü, könlü Azərbaycan sevgisi, sevdasıyla dolu bu qeyri-adi insanlar zəngin mənəviyyatları, əqidələri, kövrək ürəkləri, insaniyyətlikləri, gözü-könlü toxluğu, əsil kişilikləri, böyük vətəndaşlıqları ilə mənə əsrin əvvəllərindəki kişiləri xatırladır. Bu cür insanların ömrü yaşanmış illərin sayı ilə deyil, bu illərin dəyəri ilə ölçülür. Belə xeyirxah, əməli saleh adamlar öz xeyirxah əməlləri, cəmiyyət üçün gərəkli və faydalı fəaliyyətləri ilə seçilir və sevilirlər. Yaxşı deyirlər ki, insan öz gözündə deyil, başqasının gözündə yüksəlməlidir.

Adları Azərbaycan Ensiklopediyasına düşən, hələ gənclik illərindən başlayaraq ömürlərinin axırına kimi xalqa, yaşadıqları dövlətə, cəmiyyətə, onların inkişafına, öz töhfələrini verən İsmayıl Mirzəyev, Rza Mirzəyev, Ocaqqulu Musayev, Sovet İttifaqı Qəhrəmanı Əvəz Verdiyevin adları, əziz xatirəsi bugün də laçınlıların qəlbində yaşayır.

*Böyük hörmət sahibi olan,*

***bu gün də onları tanıyanların yaddaşında əsl el ağsaqqalı kimi qalan Hüseyn Abdullayev, Həsənalı Baxışzadə, İdris Xəlilov, Məmməd Məlikov, Hüseyin Həsənov, Əliş Tanrıverdiyev, Qasım Dostuyev, Süleyman İlyasov yaşadıqları illərin dəyəri və bəhrəsi ilə fəxr ediləsi insanlardır. Müqəddəs kitabımız, elmin dörd əsas sahəsi olan şəriəti, təriqəti, mərifəti və həqiqəti özündə birləşdirir. Bu insanların keçdiyi həyat yolu, ictimai fəaliyyəti bu dörd ana prinsipin əsasında qurulmuşdur. Xüsusilə həqiqət prinsipi onların ən çox əməl etdikləri tələblər idi. Ən çətin peşə insan olmaqdır. Vətəndaş olmağın da yolu insan olmaqdan keçir. Yuxarıda adları çəkilən insanlar bu yolun əsil ustası idi. Xalqımız cəmiyyətdə qanunçuluğun zəfərli yolunda əzmlə çalışmış belə ziyalılarla daim qürur duymuş, onları qorumuş, zamanın çətinliklərindən hifz etmişlər. Təmizlik, vətəndaşlıq qeyrəti, başı uca gəzmək, həqiqəti demək bu insanların ömrünün bünövrə daşı idi.***

Əliş Tanrıverdiyev Laçın Rayon Xalq Deputatları Soveti İcraiyyə Komitəsinin sədri işləmiş, sonralar isə geridə qalmış, kasıb bir kolxoza rəhbərlik etmiş, həmin təsərrüfatı qabaqcıllar sırasına çıxarmışdır. Atalar yaxşı deyib, "ot kök üstə bitər". Onun övladları da yüksək valideyn tərbiəsi görmüş, valideyinləri kimi dövlətin, millətin, elinin, obasının hörmətini qazanmışlar. Oğlu Telman respublikanın rayonlarında prokuror işləmiş, qanunu bir əlində, xalqı bir əlində tutmuşdur. Qızı Nəzakət xanım isə respublikada tanınan, sayılıb-seçilən həkimlərindən olmuş, adamların hörmətini qazanmışdır. Kiçik oğlu Mehman isə hazırda Bakı Dövlət Universitetinin müəllimidir.

Laçın yarananda və ondan sonra da öz təşkilatçılıqları, idarəçilikləri, adamları arxasınca aparmağı bacaran, onlara işıqlı gələcək uğrunda çalışmağı və bu inamı, düşüncəni onlara aşılamağı bacaran adamlar çox olmuşdur. Fərrux İbrahimov, Əliş Kazımov, Həzi Həsənov, Bahadur Qarayev, Seyfi Məmmədquluyev, Lütvəli Abdullayev, Həsənxan Həsənov məhz belələrindən idi. Adları çəkilən insanların bir çoxu ikinci dünya müharibəsndə böyük igidliklər göstərmiş, vətənə qalib kimi qayıtmışlar. Bu gün onların nəvələri də otuz ilə yaxın müddətdə düşmən tapdağı altında olan torpaqlarımızı azad edir, qəhrəmanlıq tarixi yazırlar.

Həsənxan Həsənovun nəvəsi polkovnik Rəşad Sadıqov onlardan biridir. Onun babası Həsənxan Həsənov ikinci dünya müharibəsində orduda siyasi işlər üzrə komandirin müavini, Berlin şəhərinin komendantı olmuş, yüksək dövlət mükafatları almışdır.



Həzi Həsənov, Qasım Dostuyev, Əmir Manafov, Əmir Quluyev, Süleyman İlyasov gənc yaşlarında könüllü olaraq cəbhəyə getmiş igidliklər göstərərək Ali Baş Komandanın mükafatı ilə təltif olunmuşlar. Süleyman İlyasov müharibənin qızğın çağında partiya sıralarına daxil olmuşdur. Partiya biletini ona həmin vaxt orduda siyasi şöbə rəisi olmuş, sonralar isə SSRİ Ali Soveti Rəyasət Heyətinin sədri və Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi işləmiş Leonid İliç Brejnev vermiş, partiya biletində imza etmişdir. Müharibədən qayıtdıqdan sonra isə onlar rayonda partiya, təsərrüfat işlərində rəhbər vəzifələrdə çalışmışlar.

*Yalnız mübariz və prinsipial insanlar*

həyatda qarşıya qoyduqları məqsəd uğrunda hər cür mübarizə aparır, bu yolda hər cür maniəni dəf edirlər. Bütün ziyalılar kimi yuxarıda adı çəkilən insanlar da dövlətin qüdrətini, cəmiyyətin azadlığını və inkişafını, sosial ədalətin bütün sahələrdə, təntənəsini məhz insanların seçdikləri peşələrə, sənətlərə dərindən yiyələnməsində görürdülər. Haqqı nahaqqa verməməyi, düzgünlüyü və mənəvi təmizliyi daim uca tutmaları bu insanların şəxsiyyəti barədə adamda dolğun təsəvvür yaradır. İnsan əbədi ömür sürmək üçün dünyaya gəlməyib. Hər birimiz bu dünyanın müvəqqəti sakinləriyik. Bununla belə insan öz əməlləri, ziyalılığı, ləyaqəti ilə, qoyduğu yaxşı ad-sanla həyatda ölməzlik yarada bilir.

İnsanın özündən sonra qoyub getdiyi nə varsa Allahın ona bəxş etdiyi bir varlıqdır. Bu varlıq onları özündən sonra da yaşadır. Bu cür şəxsiyyətlər məhz öz fəaliyyəti, təmiz əqidəsi, tutduğu düz yolun nəticəsində yüksəlir və gələcək nəsillərə örnək olurlar. Ulu tanrı öz bəndəsini yaradarkən ona tale yollarında alın yazısını verir. Həyatın bütün yollarında həmin yazı zaman-zaman insanın həyat fəaliyyətində gözü qarşısında canlanır, sonra insanın müdrikləşməsinə gətirib çıxarır.

***Müdrik insanlar həyatın bütün sahələrində insanların mənafeyini və maraqlarını öz şəxsi mənafelərindən üstün tutur, vicdanla xalqına, elinə, obasına xidmət edirlər. Adı çəkilən insanlar mənalı bir ömür yaşamış, el-obada nüfuz və hörmət qazanmışlar. İnsanların qəlbində yer tapmaq ulu tanrı tərəfindən ona bəxş olunan ilahi bir məhəbbətdir. Ömürlərini şərəf və ləyaqətlə başa vuran bu insanların hər əməli saf, bulaq suyu kimi dumdurudur. Onlar öz alicənablıqları, sadəlikləri, təvazökarlıqları, mənəvi təmizlikləri ilə insanların gözündə ucalır, tutduqları yol xeyirxahlıq, kamillik, mənəvi yetkinlik zirvəsinə bənzəyir. Bu adamların şəxsiyyətində humanistlik, sədaqət, pak mənəviyyat, fədakarlıq, xeyirxahlıq, hər işdə təmənnasızlıq, əsl insana layiq əxlaqi normalar vəhdət şəklində öz əksini tapır. Zaman keçdikcə insan nəsilləri bir-birini əvəzləyir. Dünyaya gələn hər yeni nəsil öz keçmişinə, tarixi yaddaşına nəzər salır, bütün şüurlu həyatını xalqının tərəqqisi, cəmiyyətin inkişafı, insanların yaxşı yaşamasına sərf edir.***

Deyirlər həyat yaradılışla, ölüm beşiklə məzar arasında olan bir yoldur. Hər kəs bu yolu bir cür addımlayır. Kimi elin, obanın, xalqın, vətənin yükünü çiyinlərində daşıyır, kimi də Vətənə, xalqa yük olub yaşayır. Bu yazıda adı çəkilən insanların hər biri elinin, obasının, vətəninin yükünü çiyinlərində çəkənlərdən olmuşlar.

Əsrlər ötüb keçəcək, bəşəriyyət müasirlərimizin hətta ən cəsarətli fantaziyasına belə sığışmayan zirvələrə qalxacaq, bir çox hadisələr bəlkə də unudulacaq. Lakin Azərbaycan oğullarının otuz ilə yaxın bir müddətdə düşmən tapdağı altında qalan torpaqlarımızı öz qanları, canları bahasına azad etmələri nəsillərin xatirəsində həmişəlik qalacaqdır.Torpaqlarımızın azad edilməsi uğrunda gedən döyüşlərdə həlak olmuş bütün insanların və onları dünyaya gətirib böyüdən anaların qarşısında baş əyirik. Zaman bütün dərdlərin dərmanıdır. İllər keçir bütün dərdlər unudulur, yaralar sağalır. Lakin vətən müharibəsində erməni faşistlərinin azərbaycan xalqına vurduğu yaralar, şəhərlərimizin, kəndlərimizin yerlə yeksan edilməsi hələ uzun illər yaddan çıxmayacaqdır.

***Ömrün dünənində təkcə acılı-şirinli xatirələr uyumur, insanın özü qalır, sözü qalır, gəncliyi qalır. Bəlkə də ona görə hamımız belə kövrəlmişik. Əlbəttə bu insan ömrünün təbii ahəndarlığıdır. Məqsədim bu haqda danışmaq deyil. Hərdən özümə sual verirəm. Allah insanı iki cinsdə yaradıb. Bəs nəyə görə keçmiş kişilərin bir dəfə "sən öl" deməsi ilə, nəsillər arasında qanlıçılıq götürülürmüş. İndi isə cinayət edən, kimdənsə rüşvət alan yüz dəfə sən öl deyir, fərqinə varmır. Axırda sübut olunur ki, deyilənlər hamısı düzdür. Axırda bu qənaətə gəlirəm ki, keçmiş kişilərin özündə, sözündə bir ululuq varmış. Vicdan tərəzisi insan üçün mayakdır. Daxili təmizlik, vicdani saflıq insan üçün böyük qüvvədir. O, adamı cürətli, alnı açıq, başı uca edər. Mənəvi təmizlik insana məğlubedilməz qüdrət, vətən, xalq qarşısında hədsiz hörmət verər. Bu dünyada ürəyi ləkəli yaşamaqdan ağır şey yoxdur. Ləkə çox pis şeydir. Ləkə insanı cürətsiz, başı aşağı edər, heç kəs bilməsə də, o adamı xəcalət təri içərisində boğar. Ona görə də yaxşı ad-san qoyub getmək, qızıl saray qoyub getməkdən yaxşıdır.***

*İnsan ömrünü bəzən axar suya bənzədirlər*

Gah səsli-küylü dağ çayına, gah da sakit-sakit axan suya. Hər ikisinin öz gözəlliyi, öz məlahəti vardır. Lakin onların başlıca məziyyəti insanlara xeyir verməsindədir. İnsan da belədir. Onun ən yaxşı keyfiyyəti məhz bəşəriyyətə, yaşadığı cəmiyyətə, öz doğma xalqına nə dərəcədə gərəkli olması ilə ölçülür.

Təmiz səma şimşəkdən qorxmur deyirlər. Bu yazının qəhrəmanlarının şəxsiyyəti də, məqsədi də, niyyəti də sonsuz səmaya bənzəyirdi. Ona görə də yaşadıqları dövrün sübut olunmamış cəzalarının baş alıb getdiyi vaxtlarda qəfil qopan tufanlar, çaxan şimşəklər bu qeyrət simvolu sayılan kişiləri titrətmədi, sındırmadı.

Hər kəsin qəlbində Allahın bəxş etdiyi bir işıq zərrəciyi olur. O zərrəcik isə insanlara mənalı zəhmətinin hasil etdiyi enerji ilə şöləlvarib özündən sonrakı nəsillərin gələcək həyat yollarına işıq saçır. Bu nur mənbəyi xalqın yaxşı yaşaması üçün çalışan zəhmət ilə birlikdə daha yaxşı olur.

Tanrının bəxş etdiyi ömrü şərəflə yaşamaq hamıya nəsib olmur. Çətin və keşməkeşli həyat yollarında qarşıya çıxan çətinliklərə sinə gəlib məqsədi, amalı uğrunda mübarizə aparmağı hər kəs bacarmır. Bu yol insandan dözüm, iradə, cəsarət tələb edir. İllərin sınağından alnı açıq, üzü ağ çıxmış bu insanların hər biri köklü, qollu-budaqlı, geniş gövdəli palıd ağacına bənzəyir.

Adamlar cürbəcür olur. Elələri var ki, çoxdan tanıyırsan, ancaq haqqında danışmağa çətinlik çəkirsən. Elə bil ətrafını çən-duman alıb. Elələri də var ki, bulaq suyu kimi şəffafdır, aydan-arı, sudan duru. Bu yazıda adını çəkdiyim insanlar kimi. Onların haqqında nə qədər deyilsə, yazılsa da yenə azdır. Bu cür insanlar həmişə xatirələrdə qalır, heç vaxt unudulmur.

Son nöqtəni qoymağa əlim gəlmir. Sanki, bu insanlar deyir ki, bizimlə danış, yorulmuruq. Mənsə onlara deyirəm: hamımızın, rayonlarımızın işğalından sonra və Birinci Qarabağ müharibəsində dünyasını dəyişən bütün insanların ruhu şad olsun, torpaqlarımız düşməndən təmizləndi, indi sizin övladlarınız, nəvələriniz daha qaçqın və köçkün deyillər.

**Qeyrətli insan, qorxmaz general-mayor Polad Həşimovun, polkovnik Rəşad Sadıqovun və yüzlərlə zabit və əsgərlərimizin igidliyi sayəsində, şəhidlərimizin, ordumuzun, ölkənin silahlı qüvvələrinin Ali Baş Komandanının bilavasitə qüdrəti sayəsində Azərbaycan ordusu qızıl həriflərlə tarix yazdı. Allah şəhid olanların hamısına rəhmət eləsin, qazilərimizə sağlamlıq, oğlanları şəhid və şikəst olan, lakin məğrur dayanıb, oğlumun qanı yerdə qalmadı, düşməndən qisas alındı, işğal olunmuş torpaqlarımız azad edildi deyən anaların, ataların qarşısında baş əyirik və onlara deyirik: şəhid olmaq ölümsüzlüyün ən uca zirvəsidir. Bu zirvəyə çatanlar qürur və fəxarət istinadgahımızdır. Şəhid və qazilər tək sizin yox, bütün Azərbaycanın oğullarıdır. Onlar öz igidlikləri ilə qızıldan tarix yazdılar. Dünya durduqca onlar Azərbaycan xalqının yaddaşında, qəlbində qalacaqdır.**

**Vaqif Şükürov**
**Laçın şəhər sakini**

## VƏTƏN SİZƏ OĞUL DEDİ

***Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**16.01.1998-ci ildə Sumqayıt şəhərində anadan olan Əliyev Sərxan İslam oğlu Vətən müharibəsi başlanan zaman könüllü olaraq döyüşlərə qatılıb və torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Şəhidimiz Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.**

***Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**18.02.1991-ci ildə Sumqayıt şəhərində anadan olan Quliyev Ramil Elşən oğlu Vətən müharibəsi başlanan zaman könüllü olaraq döyüşlərə qatılıb və torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Şəhidimiz Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Xocavəndin azad olunmasına görə" medalı ilə təltif olunub.**

***Tərtər-Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub***



**19.12.1991-ci ildə Sumqayıt şəhərində anadan olan Təhməzov Rövşən Zahid oğlu Vətən müharibəsi başlanan zaman Səfərbərlik Xidməti tərəfindən döyüşlərə yollanıb. Baş leytenant Rövşən Təhməzov torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Tərtər - Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub. Şəhidimiz Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif olunub.**

***Baş gizir Abdullayev Eldar***



**23.07.1981-ci ildə Sumqayıt şəhərində anadan olan Abdullayev Eldar Firidun oğlu Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasında igidlik göstərərək Hadrut istiqamətində gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.**

**Baş gizir Abdullayev Eldar Firidun oğlu Vətən müharibəsində göstərdiyi şücaət və qəhrəmanlıqlara görə "Vətən uğrunda" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olunub.**

***Şuşa istiqamətində şəhid olan çavuş***



**Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının çavuşu Mirzəyev Orxan Mehman oğlu 7 noyabr 2020-ci il tarixdə Şuşa istiqamətində gedən döyüşlərdə şəhid olub.**

**Bu barədə Nazirlik məlumat yayıb.**

***Şəhid Elçin İsmayılov!***



**23 yüksək rütbəli erməni zabitini təkbaşına məhv edən, Xüsusi Təyinatlı Qüvvələrin zabiti, "Yaşma" taborun qərargah rəisi müavini, kəşfiyyatçı, döyüş komandiri şəhid kapitan Elçin İsmayılov. Bir ailədən 3 qardaş savaşa atılmışdılar. Elçin bir çox ağır döyüşlərin iştirakçısı olmuşdu. "Şəhid olsam ağlamayın, əksinə, sevinin ki, o zirvəyə ucaldım".-deyərək evdən çıxmışdı. Dediyi kimi də sevdiyi torpaq uğrunda şəhid oldu.**

**Ruhu şaddır.**

**Allah rəhmət eləsin!**

## *Nazirlikdən Vətən müharibəsinin daha bir qazisi ilə bağlı addım*

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşları İkinci Qarabağ müharibəsində yaralanmış hərbi qulluqçu Abdullayev Kamran Kamil oğlunu (Beyləqan rayonu) ziyarət edib, ailəsinin sosial vəziyyətini öyrəniblər.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib. Bildirilib ki, qazi müddətdən artıq xidmətdə olan hərbi qulluqçu kimi fəaliyyət göstərib. Anası işləyir, nənəsi pensiyaçıdır, qazinin həyat yoldaşı isə azyaşlı uşaqlarına baxır.

Kamranın əlilliyi yaxın günlərdə qiymətləndiriləcək və əlillik təyin olunduğu halda birdəfəlik sığorta ödənişi, aylıq təqaüd və müavinətlə, reabilitasiya xidmətləri ilə təmin ediləcək. Bu barədə ona məlumat verilib. İstəyi nəzərə alınmaqla Kamran poliqrafiya üzrə kiçik biznesini qurması üçün özünüməşğulluq proqramına cəlb edilib. Bununla bağlı sənədləşdirmə işləri aparılır.

## *Bayden Trampın qərarlarını ləğv etdi: Müsəlman ölkələrinə qadağa qaldırıldı*

**ABŞ-ın 46-cı prezidenti seçilən Co Bayden hakimiyyətinin ilk günündən özündən əvvəlki dövlət başçısı Donald Trampın çox sayda qərarını ləğv edib.**

"RİA Novosti" xəbər verir ki, ABŞ lideri ölkəsinin Ümumdünya Səhiyyə Təşkilatına (ÜST) və Paris İqlim Sazişinə qayıtmasını təmin edib. Yeni prezident eyni zamanda, Meksika ilə sərhəddə divarın inşasını dayandırıb və sərhəddəki fövqəladə vəziyyəti ləğv edib ki, bu da müxtəlif idarələrin büdcələrindən Ağ Evə vəsait yönəltməyə imkan verib. Tramp administrasiyası əvvəllər ölkəyə miqrantlar üçün giriş qaydalarını sərtləşdirmişdi. Bayden bir sıra müsəlman ölkələrinin sakinlərinin ABŞ-a girişinə qoyulan məhdudiyyətləri ləğv edən fərman imzalayıb.

## Quantanamo bağlana bilər: İşgəncələri ilə məşhur həbsxananın taleyi yenə müzakirə olunur

**Pentaqon rəhbəri vəzifəsinə namizəd istefada olan amerikalı general Lloyd Ostin Quantanamo həbsxanasını bağlamağın lazım olduğunu açıqlayıb.**



TASS-ın məlumatına görə, o, bu mövqeyini Senatın Silahlı Qüvvələr Komitəsi üzvlərinin suallarını cavablandırarkən dilə gətirib.

"Hesab edirəm ki, Quantanamonun qapılarını bağlamağın zamanı gəldi", - deyə Ostin bildirib.

O, bu vəzifəyə gələcəyi təqdirdə, həbsxanada qalan 40 nəfərlə bağlı əlavə fəaliyyət planı hazırlayacağına vəd verib.

Təqaüdçü generalın fikrincə, Pentaqon onlara hüquqi yardım və insani münasibət göstərməlidir.

Bundan əlavə, o, ABŞ-ın yeni rəhbərliyinin həbsxanaya yeni insanlar göndərmək fikrində olmadığını deyərək, həbsxananı bağlamağa çalışacağını söyləyib.

Quantanamo həbsxanası - ABŞ hakimiyyəti tərəfindən əsasən müxtəlif cinayətlərdə, terrorizmdə və düşmən tərəfdə döyüşməkdə şübhəli bilinən şəxslər üçün düşərgədir. Müəssisə Kubanın Quantanamo Körfəzində daimi olaraq icarəyə götürülmüş dəniz bazasında yerləşir.

Mərkəzi Kəşfiyyat İdarəsi ilə əməkdaşlıq edən və terror şübhəlilərinin dindirilməsi üçün proqramın həmmüəliflərindən biri psixoloq Xeyms Mitçel ötən il sözügedən həbsxanada işgəncələr barədə ictimaiyyətə məlumat vermişdi.

Onun sözlərinə görə, məhkumlara qarşı su işgəncəsi, çox kiçik bir qutuya yerləşdirilmə (bəzən böcəklərlə dolu), döyülmə kimi işgəncələr verilib. Bu metodlar 2002-ci ilin iyul ayında Kiçik Corc Buş rəhbərliyi altında ABŞ Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilib. 2009-cu ildə ABŞ-ın o zamankı prezidenti Barak Obama həbsxananın ləğvi haqqında əmr imzalamışdı. Düşərgə bir il ərzində bağlanmalı idi, lakin qərar yerinə yetirilmədi.

**2018-ci ilin əvvəlində ABŞ Prezidenti Donald Tramp Quantanamodakı hərbi həbsxananın qorunub saxlanılması barədə göstəriş verdi.**

# Qarabağ arzuları çin olan Şair



*Ramiz Göyüşov*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*

**Söz vaxtına çəkər deyiblər. 2005-ci il yanvar ayının 21-i idi. Dostum professor Rüstəm Kamalla Zəlimxan Yaqubun 55 illik yubileyi ilə bağlı onun yaradıcılığına həsr etdiyimiz "Sazla havalıyam-sözlə diriyəm" kitabını hədiyyə etmək üçün Mingəçevirdən Bakıya gəlmişdik. Kitabın nəşrindən şairin özü xəbərsiz idi. O zaman Zəlimxan Yaqub həm də Millət Vəkili idi. Təxminən günorta radələrində şairə zəng etdik. Kiçik hal-əhvaldan sonra ad gününü təbrik etdik. Şair belə cavab verdi. "20 yanvar faciəsinin ertəsi nə ad günü ola bilər". Lakin gəlişimizin məqsədini biləndə bu xəbər onun üçün gözlənilməz oldu. Axı bizim onun haqqında yazdığımız kitab şairin yaradıcılığına həsr olunmuş ilk təqqiqat - ilk kitab idi. Hədiyyəmiz şairi çox sevindirmişdi. Zəlimxan Yaqubun fitri istedadı,qeyri-adi yaddaşı, alovlu tribunluğu, yüksək vətənpərvərliyi, tükənməz enerjisi,dilinin şirinliyi, milliliyi, turançılığı, folklor yaddaşı, emossionallığı, bütünlüklə Zəlimxan fenomeni haqqında çox deyilib, çox yazılıb və hələ innən belə də yazılacaq, deyiləcəkdir.**

O, Azərbaycan ədəbiyyatı tarixinə öz adını əbədi yazmış nadir söz ustadlarındandır. Əminəm ki, onun əsərləri, əsərlərində qoyduğu problemlər, poetik üslubu və dili hər zaman maraqlı və oxunaqlı olacaq, zamanın sərhədlərini aşaraq min illərə gedib çıxacaqdır. Zəlimxan poeziyası oxunduqca, öyrənildikcə daha orjinal, daha aktual, daha maraqlı olacaqdır.Onun yaradıcılığına hansı baxış bucağından baxılmasından, hansı tərəfdən yanaşılmasından asılı olmayaraq sözünün sanbalı, gücü, mənası,ləngəri və ifadə forması ilə həmin dövrün oxucusunu heyrətləndirəcəkdir. Zəlimxan Yaqub, şair haqqında," Vətən məcnunudu, safdı, dəlidi, xalqının bayraqtək qalxan əlidi" - deyərək, hər sətrindən, hər sözündən fəryad qopan əsərlərini yaradıb və əgər bu əsərlərin yaranma tarixi əsasən 1990-1993-cü illəri əhatə edir. Həmin illərdə şairin bütün yaradıcılığı sanki bu problemlərə yönəlmişdi. Böyük ədəbiyyatşünas-filosof Yaşar Qarayev şairin qeyd olunan əsərlərinin toplandığı "Şair harayı" kitabı haqqında yazırdı: "Kitabdakı şeirlər haraydır, gileydir şairin Atillaya dediyi şikayət, Pənah xana söylədiyi ağı, Xocalıya oxuduğu layladır.Bu ağı və laylalarla Şəhriyarı öz dərdindən halİ edir, Cavad xana, Babəkə, Qazan xana ürəyini boşaldır, əzabını bölüşmək üçün şaha, şeyxə və şairə-Şah İsmailə pənah gətirir".

*İblis yenə fitnəsində, şeytan şərində,*
*Ağrı canda, nisgil gözdə, yara dərində.*
*Tağım uçdu, belim sındı Xudafərində,*
*Şeyxim mənim, şahım mənim, şairim mənim!*

Və ya:

*Qanlı bir yuxu gördüm, yuxu yozanım haray,*
*Ustad Dədə Qorqudum, ulu ozanım haray,*
*Gəlsin Tüpdağıdanım, Halaypozanım haray,*
*Qüdrətimə xal düşdü, arıma güllə dəydi.*

Ta qədim zamanlardan bu günümüzədək müharibələrdə saz, söz silahla bərabər olub. Buna xalq qəhrəmanı Koroğlunun, Şah babamız Xətayinin timsalında öyrənmişik, bilirik. Bəzən elə olur ki, silahın görə bilmədiyini söz həll edir, silahla söz eyni səviyyəyə qalxır. Bəzən bir ordunun görə bilməyəcəyi bir savaşa sözlə əlac tapılır. Zəlimxan Yaqub əsərlərində şeirini, sözünü yarağa, gülləyə, mərmiyə, ildırıma, şimşəyə döndərir. Zəlimxan yaradıcılığında söz ordunu ayağa qaldırmağa qadir qüdrət sahibidir:

*Haqqın var baş olub, başda durmağa,*
*Qaldır məmləkəti ayağa, şeirim!*
*Misralar meydanda mərmiyə dönsün,*
*Kəlmələr gülləyə, darağa, şeirim!*
*Qızıldan bahadır hər gün, hər saat,*
*Gözləmir, heç kəsi gözləmir həyat.*
*Torpağı silkələ, göyləri oyat,*
*Sığışma dəftərə, varağa şeirim!*

Tarix Azərbaycana elə bir tale qismət eləmişdi ki, XX əsrin sonu, 90-cı illərin əvvəlləri müstəqilliyimizin bərpası ilə bağlı tarixin verdiyi fürsət erməni qonşularımızın növbəti xəyanətkarlığı, torpaqlarımızın növbəti qəsbi, işğalı, eyni zamanda rus imperialistlərinin xəyanəti və daxili satqınlarımızın birgə fəaliyyətilə müşayət olunurdu. Cəmiyyətin mənəvi - psixoloji düşüncəsinin, ictimai fikrinin və bütün enerjisinin milli dövlətçiliyimizin bərpasına, ərazi bütövlüyümüzün qorunmasına, torpaqlarımızın düşmən tapdağından azad edilməsinə,vətəndaş müharibəsinin qarşısının alınmasına yönəldiyi və sərf olunduğu bir vaxtda Zəlimxan Yaqub kimi, söz və sənət korifeyləri bu prosseslərdən kənarda qala, ona biganə ola bilməzdi. Bütün bu dəhşətləri görən və duyan Zəlimxan Yaqub yazırdı:

*Mənə nələr vermədi əsrin axır illəri,*
*Gözümə yaşı verdi, saçıma qarı verdi.*
*Hər kəndə, hər şəhərə bir şəhid qəbirstanı,*
*Hər evə, hər ocağa şəhid məzarı verdi.*

Xalq və dövlət Sovet imperiyasından təzəcə qopmuşdu.70 ildə xalqa sırıdılan və öyrədilən yaxşı-pis nə varsa,hamısından imtina edilmişdi. Yeni dəyərlər isə hələ yaranmamışdı. Bir tərəfdən milli dövlət quruculuğu prosesində buraxılan səhvlər və boşluqlar, hökm sürən başıpozuqluq və dərəbəylik, səriştəsizlik və özbaşınalıq, özündən müştəbehlik, digər tərəfdən müharibə, yenicə müstəqillliyini bərpa etmiş ölkədə çoxsaylı problemlər yaratmışdı. Bütün bu proseslər cəbhədə uğursuzluqlarla , torpaqlarımızın itirilməsi, gənclərimizin kütləvi şəhid olması ilə müşayət olunurdu. Məmləkət başsız qalmış, ara qarışıb məzhəb itmişdi. Torpaq isə yavaş-yavaş əldən gedir:

*Parça-parça Azərbaycan əldən gedir,*
*Yox, yox! Təkcə əldən getmir,*
*Başdan gedir, beldən gedir,*
*Xalqdan gedir, eldən gedir,*
*Gözlərimiz baxa-baxa gözdən olur Azərbaycan.*
*Gücü çatmır öz gücünü qaldırmağa,*
*Qüvvət gedir, dizdən olur Azərbaycan.*
*Şuşa gedir, Ağdam gedir, Laçın gedir,*
*Yavaş-yavaş bizdən olur Azərbaycan.*

Şair Qarabağ mövzusunda yazdığı əsrlərdən birini "Vətən yaraları" adlandırıb. Kəlbəcərin işğalına həsr olunmuş bu poema bir yazının,bir tədqiqatın mövzusudur. Poema bu misra ilə başlanır: "Dedilər ki,bu axşam Kəlbəcər də verildi ".Müəllif "verildi"kəlməsini görün əsərdə necə təqdim edir:

*...Birdən birə elə bil,*
*Duyğularım, hisslərim kaman kimi gərildi!*
*Söhbətə bax, sözə bax*
*Kəlbəcər də verildi...*

"Tək bircə Kəlbəcər gedibsə, əldən,mənim kimisinə haramdı dünya" deyərək haray çəkirdi Zəlimxan Yaqub:

*Necə ola bilər ki,*
*Bircə günün içində məğlub olsun Kəlbəcər,*
*Bir daşı,bir qayası tərpənməsin tük qədər?!*
*Mən buna inanmıram,*
*Mən bu məğrur dağları məğlub olmuş sanmıram!*

Kəlbəcər Zəlimxan Yaqub üçün təkcə dağlar-daşlar, meşələr, bulaqlar, coşqun çaylar, dərin dərələr, quşqonmaz qayalar deyildi. Bu yerlər həm də xalqın etnik yaddaışnın yaşadığı məkan,sazımızın, sözümüzün, nağıllarımızın, dastanlarımızın vətəni idi. Səməd Vurğun və Aşıq Şəmşir dastanının ünvanı idi Kəlbəcər. "Dillər bu gün dilsiz qalıb, Aşıq Şəmşir məzarından ayrı düşüb, aralanıb, Güllü nənə gülsüz qalıb","Şəmşir ağlar zarı-zarı, saz üstündə qan yaş tökər" deyərək Zəlimxan yanıb yaxılırdı. Kəlbəcəri verənləri kəskin ittiham edərək onları zamanın öhdəsinə buraxır.

*Öz xalqının adıyla, hər gün alver edənlər,*
*Şan-şöhrət pilləsiylə özünə yer edənlər,*
*Yada xoş gəlmək üçün özünə şər edənlər,*
*Cildən-cilə girsə də,*
*Dondan-dona düşsə də,*
*...Zaman söküb-tökəcək masqaları, donları,*
*Sabunla kəndir tapıb xalq asacaq onları.*

Belə olanda şair haray çəkir, fəryad qoparır. Ən uca dağın zirvəsin qalxaraq gur səsi ilə bütün Azərbaycana müraciət edir: "Gözünü yaş yandırıb, qəlbimi qəm tutanlara, ayağı yer, dili söz əli qələm tutanlara, ağsaqqalara, qocalara, sərkərdəyə, ozana, tariximizi qan içində yaradıb, qan üstündə yazanlara, əri şəhid olanlara, oğul məzarı üstə saçlarını yolanlara, toyu yasa dönənlərə, alışmamış sönənlərə, milyonçuya, rüşvətxora, oğruya, alçağa, baş kəsənə, atasından inciyib, anasından küsənə, qorxağa, fərariyə, kənara çəkilənlərə, aradan əkilənlərə, Vətən adı gələndə arzuları çin olanlara, qeyrətli oğullara, işi ancaq söz olub, söz üstə yarışanlara, qaçqın, köçkün, didərgin, evsiz-eşiksiz qalanlara, dili səssiz, laylasız, əli beşiksiz qalanlara, partiyalara, dəstələrə, dəstəbazlara, qurumlara, həyasız alverçilərə, halal ticarətçilərə, min dəfə soyulanı bir də üstəlik soyanlara, dünya malından ötrü öz doğma qardaşına daldan güllə atdıranlara, min dəfə əziləni yenidən əzdirənlərə, Vətəni qəlbində yox,cibində gəzdirənlərə səslənir, onları haraylayır":

*Mən sizi çağırıram,*
*Mən niyə çağırıram?*
*Bu çağırış, bu nida, bu səs nə deyir sizə?*
*Ürəyimi göynədən,*
*Dodağımı yandıran,nəfəs nə deyir Sizə?*
*Düşünün fikirləşin!*

Xəyanətkarları, satqınları lənətləyir Zəlimxan Yaqub: "Çoxu eşşək gəzir həriflməyə, çoxu yəhərlənmiş hazır at gəzir, Şuşa əlimizdən gedəsi olsa, çoxu kəlləsinə güllə sıxırdı,"maşallah" hələ də salamat gəzir":



*"Vaqif! Ey sərvərim, ey tacidarım!"*
*Başdan Şuşa adlı tacı vermişik!*
*Şuşanı verməklə düşmən cənginə,*
*Məkkəni vermişik, Hacı vermişik!*

Və şairin son nidaları səslənir, xəbərdar edir, müraciət etdityi kəslərin hər birini:

*Vətən əgər dardadırsa,*
*Mənim haqqım kaman kimi gəlirməkdir,*
*Ölünün də haqqı yoxdur,*
*Məzarında rahat yata,*
*Onun haqqı dirilməkdir.*
*Vətən əldən gedən olsa,*
*Vətəndaşın qalır bircə vəzifəsi,*
*Bir kəndirdi, yağlı kəndir,*
*Bir boğazdı, bir ilməkdi!*

O illərdə şair Təkcə Dədə Qorquda, Qazan xana, Şah Xətaiyə müraciət etmirdı, həm də "Allahım, mənə bir ağsaqqal yetir" deyərək Tanriya müraciət edirdi:

*Allahım,mənə bir ağsaqqal yetir,*
*İstər yerdən çıxart, özün bilərsən.*
*İstər göydən endir, özün bilərsən.*
*...İstər Cavanşiri qaldır yerindən,*
*İstər Xətaini təzədən gətir.*
*...Baş ver, başımızda tac ola bilsin*
*Ruh ver, qolumuzda güc ola bilsin.*
*...Dönsün nəsillərin ziyarətinə,*
*Məkkə ola bilsin, Hacc ola bilsin!*
*...Adamı insana, kütləni xalqa*
*Tayfanı millətə çevirmək üçün,*
*Allahım, mənə bir ağsaqqal yetir!*

Və 1993-cü ildə Tanrı o, ağsaqqalı Azərbaycana yetirəndə,xalqın təkidli tələbi ilə Ümumilli liderimiz Heydər Əliyev hakimiyyətə gələndə Zəlimxan Yaqub yazırdı:

*Addımbaşı ölümlə çarpışan şirim mənim,*
*Ölümsüzüm, olməzim ,əbədi dirim mənim,*
*Gur ocaqlar yandıran ocağım,pirim mənim,*
*Yüz minlərin içində minim yox ,birim mənim,*
*Allah özü də təkdir,baxma meydanda təksən,*
*Sən qalib gələcəksən!*

Lakin qalibiyyətin təmin edilməsi üçün çox iş görmək lazım idi.Ən birincisi isə ordudan, ordu qurmaqdan başlamaq lazım idi. Qarabağın qalibiyyəti ordudan keçirdi. Şair haray çəkirdi: Mənə ordu gərəkdir, xəstəyə dərman kimi, mənə ordu gərəkdir, nəfəs kimi, can kimi,mənə ordu gərəkdir, sarsılmaz cahan kimi.:

*Düşmənin yuvasını əlimlə pozmalıyam.*
*Səngəri dırnağımla, dişimlə qazmalıyam.*
*Tarixi qələmlə yox, qanımla yazmalıyam,*
*Ordum varsa, yurdum var,ordum yoxsa, yurdum yox!*
*Gözlər od, əllər silah, canlar sipər olmalı,*
*Kirpiyimiz sıxılıb yurda çəpər olmalı,*
*Damarda qan coşmalı, canda təpər olmalı,*
*Ordum varsa, yurdum var,ordum yoxsa, yurdum yox!*

Şair həm də soyuq səngərlərdə Vətənə keşik çəkən, başsız dəstəbaşçıların başsızlığı üzündən canını düşmən gülləsinə güdaza verən əsgərlərimizə müraciətən yazdığı "Əsgər qardaşma məktub" şeiri çox təsirlidir.

Onun əsgərlərimizə müraciət formasına diqqət yetirin: "Mənim şah damarım,mənim sağ gözüm:

*Özün qaz səngəri,özün aç yolu,*
*Dumandan,gümandan çıxart milləti.*
*Ən güclü ordunun zərbəsinə dön,*
*Ən ağır zamandan çıxart milləti,*

*Qələbə pay deyil,hədiyyə kimi.*
*Gətirib hardansa verələr sənə.*
*Özün qazanmasan lənət oxuyar,*
*Bu dağlar, bu düzlər, dərələr sənə,*

Zəlimxam Yaqub bütün yaradıcılığı boyu Türk dedi, Turan dedi. O, Azərbaycanı Türkiyəsiz təsəvvür etmirdi.Əsərlərində, söhbətlərində, dastanlarında Bilgi xanla Oğuz xanın, Dədə Qorqudla Yunus Əmrənin, Şah Xətayi ilə Sultan Yavuzun, adını qoşa çəkirdi. "Əzəlaxır dünya türkün dünyası"dır deyird. Hiss edirdi ki, biz Qarabağda Böyük qələbəyə Türk qardaşlarımızla birgə nail olacağıq:

*Döyüşdədir ağlın huşun yolları,*
*Döyüşdədir uçan quşun yolları,*
*Döyüşdədir qurtuluşun yolları,*
*Dəniz kimi dalğalan türk, çalxan türk,*
*Döyüşən türk, oyanan türk,qalxan türk!*

Şair bizim Böyük Qələbəyə, Müqəddəs Qələbəyə Gün kimi, Ay kimi inanırdı. O, bu qələbənin çox uzaqda olmadığını da hiss etmişdi. Şeirlərindən göründüyü kimi Qarabağ düyününü danışıqlar yolu ilə deyil savaş yolu ilə həllini istəyirdi.

Ömrünün sonuna yaxın Qarabağ haqqında yazdığı şeirlərdə xalqı, milləti savaşa, döyüşə çağırırdı:"Son saatım, son xilasım, son əlacım hücumdu" deyərək hər bir Vətən oğluna səslənirdi:

*Qara buludların yaxasını cır,*
*Dəli şimşəklərin inadını qır,*
*Yer kimi silkələn,göy kimi hayqır,*
*Haydı Vətən oğlu sərhədləri aş,*
*Savaş istəyirəm,dəli bir savaş.*

Hiss edirdi ki, bu "dəli savaş"da qalib olacağıq. Yoxsa bizi babaların ruhu bağışlamaz, gələcək nəsillər bizi daşa basar, şəhidlərin ruhu od tutub yanar. Ona görə gur səsilə hayqırırdı:

*Anam Azərbaycanım! Dayanma məzlum, fağır,*
*Məzlumların başına göydən od-alov yağır.*
*Bütün oğullarını səslə, döyüşə çağır,*
*Bir göz qırpımı belə qiymətli an deməkdir,*
*Tökülən hər damla qan bir həyacan deməkdir,*
*Bu gün döyüş meydanı Azərbaycan deməkdir.*
*Yaxşılara yaxşı ol ,yaman ol yamanlığa,*
*Ana Vətən,hazır ol Böyük qəhrəmanlığa!*

Zəlimxan Yaqub həmişə səsi,sözü,şeirləri ilə xalqı birliyə çağırırdı. Bu baxımdan onun "Şair harayı" poemasının finalı çox maraqlı və təsirlidir: "Nurlu axşam düşər, qızıl dan olar, qızıl sünbül bitər, qızıl dən olar, millətin dirəyi qızıldan olar, daşlar gül bitirər, qayalar çiçək, bu gün yumruq kimi birləşə bilsək":

*Torpağın dalınca torpaq gedəcək,*
*Ağacın dalınca yarpaq gedəcək,*
*Qanımız getdisə canımız gedib,*
*Baş getdi dalınca papaq gedəcək.*
*Dünya şirinlikdən daddan çıxacaq,*
*Papaq unudulub yaddan çıxacaq,*
*Ləçək bağlanacaq başlara ləçək ,*
*Bu gün yumruq kimi biz birləşməsək!*

**Zəlimxan Yaqub 2003-cü ildə Ümummilli liderimiz Heydər Əliyevə həsr etdiyi "Böyük ömrün dastanı" poemasında: "...Şah İsmyıl Xətayim, igid oğlu, ər oğlu, O, da Heydər oğludur, İlham da Heydər oğlu" deyərək Prezident İlham Əliyevin indi xalqımızı bir məslək, bir amal uğrunda birləşdirəcəyinə və böyük qələbəyə nail olacağını inanırdı. Şair O günü görməsə də arzuları çin oldu. Cənab Ali Baş Komandan İlham Əliyev yumruq kimi birləşdirdi bu xalqı. Xalqımızın birlik rəmzinə çevrilən bu " Dəmir yumruq " düşmənin başında ildırım kimi çaxdı. Ruhun şad olsun Qarabağ arzuları çin olan Şair!**

# MİRZƏ İSMAYIL QASİR

**XIX əsr Azərbaycan poeziyasının və pedaqoji fikrinin görkəmli nümayəndələrindən biri Mirzə İsmayıl Qasirdir. Mirzə İsmayıl Hacı Molla Səlim oğlu Qasir 1805-ci ildə Şirvan (Şamaxı) xanlığının (indiki Ağdaş rayonunun) Ləki kəndində anadan olmuşdur. Atası Molla Səlim dövrünün mükəmməl təhsil görmüş, Kərbəlada oxumuş ziyalılarından biri olmuşdur. Onun "Qasir" təxəllüsü ilə türk, ərəb və fars dillərində şeirlər yazdığı məlumdur. Molla Səlim Cavadxan mahalında mədrəsə açaraq burada dərs demişdir. İsmayıl balaca ikən atası 1812-ci ildə vəfat etmişdir. Atasının ölümündən sonra İsmayıl Əhər qəsəbəsində (Qaradağ xanlığının paytaxtı) yaşayan bacısıgilə getmiş və təhsilini davam etdirmişdir. 4 il burada oxuduqdan sonra Təbrizə getmiş, ərəb və fars dillərini, Şərq ədəbiyyatını və fəlsəfəsini mənimsəmişdir.**

Təhsili başa vuran Mirzə İsmayılın xəttatlıq sənətinə dərindən yiyələndiyi və geniş məlumatlı şəxs olduğu üçün isfahanlı Seyid Hüseyn Təbətai onu İsfahana dəvət etmiş, ömrünün müəyyən hissəsini onun oğlanlarının təlim-tərbiyəsinə, təhsilinə həsr etmişdir. Mirzə İsmayıl İsfahanda müəyyən müddət yaşadıqdan sonra, 1830-cu illərin ortalarında Şirvana qayıtmış və bir müddət burada yaşamışdır (Axundzadə Mirzə İsmayıl Qasir -210. B., 2015, səh. 31-32).



M.İ.Qasir 1840-cı ildə Qaradonlu (indiki İmişli) sərhəd idarəsində tərcüməçi vəzifəsinə təyin olunur. O, burada Həcər adlı qızla evlənir. 1850-ci illərin əvvəllərində Sadıq bəy Mehmandarov (general Səməd bəy Mehmandarovun atası) Lənkəran qəzasında məhkəmə katibi təyin olunduğu üçün Şuşadan Lənkərana gedərkən yolüstü Qaradonluda Mirzə İsmayıl Qasirlə tanış olub, onu müəllimlik etmək üçün Lənkərana dəvət edir. Lakin, Sadıq bəy Mehmandarov tərəfindən Mirzə İsmayıl Qasirin Lənkərana məhz müəllimliyə dəvət olunması tədqiqatçılar tərəfindən heç də bir mənalı qarşılanmır. Yəni onun müəllimlik yox, mirzəlik etməsi üçün Lənkərana dəvət alması da qeyd olunur. Mirzə İsmayıl Qasir Lənkərana köçdükdən 2-3 il sonra həyat yoldaşı Həcər xanım vəfat edir və o Lənkəranın Sütəmurdov kəndində yaşayan dayısı Əliməmmədin qızı Bibixanımla evlənir.

M.İ.Qasir Lənkəranda həm pedaqoji və həm də ədəbi fəaliyyətlə məşğul olur. Buna görə də onun fəaliyyətini pedaqoji və ədəbi sahələrə bölmək olar.

**Pedaqoji fəaliyyəti:**

***M.İ.Qasir Lənkəranda ilk əvvəl müsəlman məktəbində (məktəb 1849/1850-ci ildə açılmışdır) və köhnə üsullu məktəbdə dərs demişdir. Dövrünün mütərəqqi ziyalılarından olan Mirzə İsmayıl Qasir təlimdəki köhnəliklərə baxmayaraq 1872-ci ildə Lənkəranda "Üsulicədid" (Yeni üsullu) məktəbi açır. XIX əsr Azərbaycan məktəbinin tədqiqatçısı professor Hüseyn Əhmədov yazır: "XIX əsrdə ana dilində ilk məktəblərdən biri füzuli ədəbi məktəbinin davamçısı olan Mirzə İsmayıl Qasir tərəfindən Talış mahalında açılmışdır. Qasirin məktəbində ana dili ilə bərabər rus və fars dilləri, ədəbiyyat tədris edilir, təbiyyət və s. elmlərdən ibtidai məlumat verilirdi. O, tədris etdiyi materialları toplayaraq 1894-cü ildə "Qanuni-Mirzə İsmayıl Qasir" adlı bir tədris vəsaiti düzəltmişdi. Mirzə İsmayıl Qasir sonralar bir müddət, təxminən 18 il (1883-1900) Lənkəran iki sinifli dövlət ibtidai məktəbində ana dili və şəriət müəllimi vəzifəsində işləmişdir" (XIX əsr Azərbaycan məktəbi. B., 1985, səh. 280).***

Mirzə İsmayıl Qasir eyni zamanda talış dilinin qrammatikasına aid kitabda yazmışdır. Bu barədə "Axundzadə Mirzə İsmayıl Qasir -210" kitabında oxuyuruq: "Şərqşünas B.V.Millerin məlumatına görə, (Talışskiy yazık. Moskva 1953-İ.Ş.) hələ 1860-cı illərdə Mirzə Əsədulla, Mir İbrahim bəy və Mirzə İsmayıl Qasir talış dilinin qrammatikasına aid bir kitab tərtib edir və onu çap etdirmək üçün Mirzə Fətəli Axundovla birgə Lənkərana gəlmiş akademik B.A.Dorna verirlər. Lakin naməlum səbəblər üzündən həmin dərslik çap olunmamış qalır və hazırda əlyazma halında Sankt-Peterburq Universitetinin əsaslı kitabxanasında Orientalia 932 şifrəsi altında mühafizə edilir" (B., 2015, səh. 48).

M.İ.Qasir məktəbinin məzunları sırasında bir çox görkəmli şəxsiyyətlər vardır ki, onlardan biri də Azərbaycan Xalq Cümhuriyyətinin müdafiə naziri olmuş general-mayor Səməd bəy Mehmandarov olmuşdur.

**Ədəbi fəaliyyəti:**

Yuxarıda qeyd olunduğu kimi Qasir mirzəlik və maarifçiliklə yanaşı, eyni zamanda bədii yaradıcılıqla da məşğul olmuş və Füzuli ədəbi irsinin davamçısı kimi tanınmışdır. O, ədəbi yaradıcılığa hələ tələbəlik illərində başlamış və həmin vaxtlar "Məcnun" təxəllüsü ilə şeirlər yazmışdır. Sonradan atası Hacı Molla Səlimin təxəllüsü olan "Qasir" i özünə təxəllüs götürmüşdür. "Qasir" ərəb dilində "Allah taalanın yanında qüsurlu, nöqsanlı" mənasını verir. M.İ.Qasir öz əsərlərini iki dildə - türk və fars dillərində yazmışdır.

***M.İ.Qasirin təşəbbüsü və iştirakı ilə 1850-ci ildə Lənkəranda "Fövcül-füsəha" (Natiqlər məclisi) adlı ədəbi məclis yaradılmışdır. 1850-ci ildən 1900-cu ilədək fəaliyyət göstərmiş "Fövcül-füsəha" ədəbi məclisinə Qasir rəhbərlik etmişdir (Böyükağa Hüseynbalaoğlu, Mirhaşım Talışlı. Lənkəran. B., 1990, səh. 91).***

"Fövcül-füsəha" ədəbi məclisinin müxtəlif sənət adamlarından olan 35 üzvü olmuşdur. Məclis hətədə bir dəfə - cümə günü axşam yığışardı.

Lənkəranda maarifin inkişafı və ədəbi mühitin formalaşmasında böyük xidmətləri olan Mirzə İsmayıl Qasir 10 may 1900-cu ildə vəfat etmiş və Lənkəran rayonunun Sütəmurdov kəndində dəfn edilmişdir. 1983-cü ildə şairin məzarı üstündə tuncdan büstü ucaldılmışdır. Şairin vəfatından sonra aşağıdakı əsərləri çap olunmuşdur: 1) El şairləri. B., 1985. 2) M.İ.Qasir. Şeirlər. B., 1988. 3) Seçilmiş əsərləri. B., 1990. 4) Axundzadə Mirzə İsmayıl Qasir - 210. B., 2015.

**Ağdaş və Lənkəran Tarix-Diyarşünaslıq Muzeylərində Mirzə İsmayıl Qasirə xüsusi bölmə ayrılmış və Lənkəran şəhərinin küçələrindən birinə adı verilmişdir.**

**İldırım ŞÜKÜRZADƏ**
**Lənkəran rayonunun Havzava kənd tam orta məktəbinin tarix müəllimi,**
**Bələdiyyə və Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

## Yeni kitab




**Müxəmməd Haqverdi ”Duyğu rəngləri ” şeirlər Ecoprint nəşriyyat-2020**

**Əslən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndindən olan şair Müxəmməd Haqverdinin bu günlərdə ”Düyğu rəngləri” yeni şeirlər kitabı çap olunub.İndiyə kimi şairin bir neçə şeir kitabı işıq üzü görüb. Bu kitabında da şair öz üslubuna, deyim tərzinə sadiqdir. Poetik səmimiyyət, rəvan və lakonik düşüncə, həmçinin bədii dilin zəngin koloriti kitaba toplanan şeirlərin başlıca cəhətidir. Kitab 208 səhifədən ibarətdir. Topluda bayatılar, dördlüklər, lirik, içtimai şeirlər və müəllif haqqında ürək sözləri yer alıb.**

# Gəncədə “COVID-19”-a qarşı vaksinasiya prosesinə başlandı



**Gəncədə yeni növ koronavirusa (COVID-19) qarşı peyvəndləmə prossesinə başlanılıb.**

**İlkin olaraq tibbi işçilərinin vaksinasiyası həyata keçirilir.**

**Gəncə şəhər İcra hakimiyyətindən Adalet.az-a verilən məlumata görə, bununla əlaqədar olaraq Gəncədə 6 tibb məntəqəsi yaradılıb. 2, 5 və 6 saylı şəhər poliklinikalarında, habelə Gəncə Beynəlxalq Xəstəxanası, Yeni Gəncə Tibb Mərkəzi və Gəncə Mərkəzi Klinika Xəstəxanasında yerləşən tibb məntəqələrində xüsusi otaqlar hazırlanıb.**

**Burada gözləmə, qeydiyyat, peyvənd və postvaksinal-gözləmə otaqları ilə yanaşı, vaksinasiyadan sonra səhhətində hər hansısa problem yarana biləcək şəxslər üçün təcili yardım otağı da yaradılıb. Bütün otaqlar zəruri tibbi və gigiyenik avadanlıqlarla təchiz ediliblər.**

**Bu otaqlarda gün ərzində 100 nəfərin peyvənd edilməsi mümkündür.**

**Vaksinlər tələb olunan normalara uyğun şəkildə xüsusi termoçantalarda gətirilərək, tibb məntəqələrində quraşdırılan soyuducularda 2-80 tempraturda saxlanılırlar.**

**Birinci mərhələdə şəhərə 1659 doza peyvənd gətirilib.**

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

№ 7 (2188) 22 yanvar 2021-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# TUĞ KƏNDİNİN GƏLƏCƏK PERSPEKTİVİ

**Adətən doğmalardan, doğma yerlərdən danışanda bu barədə düşünəndə və hansısa bir məsələni qələmə almaq istəyəndə təkcə məsuliyyət hissi yox, bir övlad borcu da yüklənir çiyinlərimə. İstəyirəm ki, yazdığım, oxucuya təqdim etdiyim fikirlər reallığı, gerçəyi ifadə etsin. Və bu da həm oxucuda, həm də mənim yazdığım mövzudan xəbərdar olan həmyerlimdə maraq hissiylə yanaşı, inam hissi da yaratsın. Deməli, məntiqlə yanaşanda, ortaya həqiqətin, gerçəyin qoyulduğuna bir güvən olsun...**

Hələ orta məktəbdə oxuduğum illərdə doğulduğum kəndlə bağlı bilgilər əldə etməyə özəl marağım olubdu. Əlimə düşən kitabda, qəzetdə Tuğ kəndiylə bağlı, ümumiyyətlə, "Tuğ" sözüylə bağlı nə görsəm, onu acgözlüklə oxuyurdum.

Bu gün həmin o bilgilərə söykənib kəndimə, onun tarixinə, onun coğrafiyasına qayıdıram. Onun iqtisadi həyatını, mənəvi aləmini yaddaşımda bərpa edirəm. Və beləcə, gəzirəm Tuğ kəndini...

Dağlar qoynunda yerləşən bu kənd qədim insan məskəni olan Azıx mağarasıyla üzbəüz ərazidə Quruçay vadisindədir. Bu kəndin mənzərəsi ayrı bir aləmdir. Hər iki tərəfindən dağ çayları axır.

Dağın döşündə yürləşən kəndin əkin sahələri məhz həmin o çayların kənarında düzəngah hissədədir. Bu kəndin adına tarix kitablarında tez-tez rast gəlmək mümkündür. Ümumiyyətlə, "tuğ" sözünün bir neçə yozumu var. İstər fars mənşəli sözlər sırasında, istər türk mənşəli sözlər arasında dilçilər, etnoqraflar bu sözün bir neçə mənasını ədəbiyyata gətiriblər. Mənim üçün həmin sözlərin sırasında bayraqdar daha önəmlidir. Bu kəndin coğrafiyasının, yəni relyefinin imkanları kənd təsərrüfatı üçün çox əlverişlidir.

Həm meşə zolağı, həm yaşıl çəmənlər, həm də bol su ehtiyatı burada heyvandarlığın inkişafına geniş şərait yaradır.

Sovet dönəmində bu kəndin təsərrüfat subyektləri arasında maldarlıq, quşçuluq, donuzçuluq, eləcə də xırdadırnaqlı heyvanların saxlanması əsas sahələrdən idi. Məhz qoyunçuluğun və maldarlığın burada inkişaf etdirilməsi həm "kolxoz", həm "sovxoz" təsərrüfatları dövründə bu kəndin yun, süd, ət istehsalına, təbii ki, həm də süd məhsulları - pendir, xama, qatıq və s. də istehsalına böyük imkan vermişdi. İndi də xatırlayıram ki, hətta qonşu rayonlardan kəndimizə pendir, qatıq, süd almaq üçün gələnlər də çox olurdu və onlar həmin emal müəssisəsində bəzən növbəyə də dayanırdılar.

***Tuğ kəndində baramaçılıq və şirə emalı sahəsi də inkişaf etdirilmişdi. Xüsusilə baramaçılıq kənd sakinləri üçün çox gəlirli bir sahə hesab olunurdu. Hardasa 40-45 günlük zəhmət hesabına istehsal olunan barama becərilməsi kəndin orta və gənc nəsli üçün müəyyən mənada əlavə qazanc da hesab olunurdu. Bu kənddə yetişdirilən çeşid-çeşid meyvələrdən, o cümlədən meşə zolağından toplanmış müxtəlif meyvələrdən təbii şirələr hazırlanırdı. Bu müəssisənin də imkanları o vaxtkı Dağlıq Qarabağ Muxtar Vilayətinin hüdudlarını aşmışdı. Hətta Tuğ Şirə Müəssisəsinə meyvə tədarük edib göndərirdilər. Bu həm iş yeri kimi önəmli idi, həm də yerli və təbii məhsul istehsalının çeşidini, kəmiyyətini artırmaq demək idi. Xüsusilə toplanan böyürtkən, itburnu kimi təbii giləmeyvələrdən çəkilən şirələr hər kəsin arzu etdiyi nemətidi. Bu işdə məktəb yaşlı uşaqlar daha çox fəallıq göstərirdilər. Çünki toplanılmış məhsulu şirə müəssisəsinə təhvil verib nağd pulunu almaq ailə büdcəsinə böyük kömək idi.***



Tuğ kəndində becərilən üzüm bağlarının imkanları da çox böyük idi. Burada deməyə şəraitdə müxtəlif növ, xüsusilə şərab istehsalı üçün nəzərdə tutulmuş "prakasteli" növ üzüm yetişdirilirdi.

Kifayət qədər məhsuldar olan bu növün şəkərliyi də yüksək idi. Ona görə də təsərrüfatın şərab zavodu da fəaliyyət göstərirdi. Həmin şərab zavodunda məşhur "Hadrut" şərabının böyük bir hissəsi emal olunurdu. Yeri gəlmişkən, xatırladım ki, Tuğ kəndi sovet dönəmində o vaxtkı muxtar vilayətin Hadrut rayonuna aid edilmişdi. Bu gün isə Tuğ kəndi Xocavənd rayonuna ərazi vahidi kimi daxil edilib. Bunu ona görə xatırladıram ki, məşhur "Hadrut" çaxırı məhz Tuğda və qonşu kəndlərdə istehsal olunan üzümdən çəkilmiş şirədən hazırlanırdı. Kənd təsərrüfatı rayonlarının inkişafı ilə bağlı mövzunu göz önünə gətirəndə onda üzümçülüyün nə qədər böyük imkanlar yaratdığını təxmin etmək olur. Belə ki, bu kənddə yaşayan əmək adamı üzümçülük sahəsində il boyu çalışır.

***Burada üzüm tinglərinin torpağa basdırılmasından başlamış onun dibinin yumuşaldılmasına, sonra xüsusi beton dirəklərə qaldırılmasına, yaşıl budanmasına, dərmanlanmasına, sonra üzümün toplanmasına, onun emal müəssisəsinə daşınmasına, sonra yenidən payız budanması... Bax, bütün bunlar insan əməyi təşkil edir. Deməli, bu həm də iş yeridir. Bu mənada doğulduğum kəndin təsərrütaf həyatında üzümçülük sahəsi geniş yayılmışdı və təxminən həmin sahə üzrə 5-6 briqada fəaliyyə göstərirdi. Bu briqadaların da hər biri 30-50 nəfərdən ibarət idi. Bax, bu adi bir fakt kənd adamının torpağa bağlanması və burada boluğun yaranması üçün əmək sərf etməsi kimi vacib məsələni göstərmiş olur.***

Doğrudur, Tuğ kəndi sovet terminologiyası ilə desəm, baynəlmiləl kəndidi vıə burada ermıənilərlə azərbaycanlılar birgə yaşayıb və təsərrüfatda da birgə çalışıdrdılar.

Hətta bu kəndin təsərrüfat sahəsinə "Tut arağı" istehsalı da daxil idi. Böyük tut bağlarından toplanan məhsul məhz kəndin öz emal müəssisəsində hazırlanırdı (Bu gün Azərbaycanın Şəmkir rayonunda da "tut arağı" zavod şəraitində hazırlanıb satışa çıxarılır - Ə.M).

Əsasən heyvandarlıq, üzümçülük, bağçılıq sahələri üzrə formalaşmış təsərrüfat sahəsinə dənli bitkilərin və bostan-tərəvəz məhsullarının yetişdirilməsi də daxil edilmişdi. Hətta bu kəndin istehsal etdiyi tərəvəz - kələm, çuğundur, kartof, soğan, pomidor, yerkökünün xeyli hissəsi həmin illərdə Sovet ordusunun hadrut ərazisindəki sərhəd dəstəsini də təmin edirdi. Yerli əhali öz istehsalı olan buğda, arpa, qarğıdalı ilə kifayət qədər təmin olurdu.

Xatırlayıram ki, doğulduğum kənddə tütünçülük də müəyyən qədər perespektivli sahə sayılırdı.

O ki, qaldı sənaye sahələrinə, bu kənddə fəaliyyət göstərən tikiş fabriki gənc qızlar üçün önəmli iş yeri hesab olunurdu.

**Bax, qeyd etdiyim bütün sahələr bu gün də böyük önəm kəsb edir. Ona görə də ölkə prezidenti cənab İlham Əliyevibn regionların inkişafıəna dair Dövlət Proqramı barəsində söykədiyi konkret fikrə istinadən deyə bilərəm ki, işğaldan azad olunmuş Tuğ kəndində bu sahələrin yenidən bərpası və inkişaf etdirilməsi ölkə iqtisadiyyatına mühüm bir töhfə olacaqdır. Çünki bu torpaqların bərəkəti də bəllidir, zəhmət adamlarının əmək təcrübəsi də.**

*Əbülfət MƏDƏTOĞLU*

AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Emin Piri - "Ölümü barmağında oynadan" şair

## İkinci Qarabağ savaşı başlayandan cəbhədə olan şairimizin şeirlərində müharibə və uşaqlar



*Elnarə AKİMOVA*

*Mənimlə*
*"ölüm-ölüm" oynama,*
*Allah!*
*mən ölümü barmağında*
*oynadan bəndənəm.*

**Epiqraf kimi bu şeiri seçməyim əbəs deyil. Emin Pirinin şair obrazı, müharibəyə, ölümə və həyata baxışı bu misraların içindədir. Emin yaradıcılığından əsas xətt kimi keçən müharibə şeirlərini yazmaqla qalmadı, həm də dönə-dönə canlandırdığı savaş lövhələrinə daha yaxın, daha dərindən bələd olmaq üçün cəbhəyə yollananlardan oldu. Bu qərarı verib gedirsənsə... artıq nə yaradıcılıq axtrarışları üçün edirsən, nə də hansısa gündəm mövzusuna predmet olmaq üçün. Bunu içində özümlü şəkildə yaşadığın Vətən sevgisi diqtə edir. Ancaq vətənin sabahını düşünüb gedirsən. "Ölüm-ölüm" oynamağa gedirsən və hər bir halda - şəhid də olsan, sağ da qalsan öz sözünü deyirsən artıq! "Ölümü barmağında oynadıb" dönürsən.**

Emin Piri haqqında yazmaq qərarı verəndə onun şeirlərinə bir də nəzər saldım. "Tanrının kölgəsi" və "Sağ qalan varmı?!"... Eminin bu adla adlanan kitablarını vərəqlədim. Adından tutmuş içindəki bütün şeirlərə qədər özündə mübhəm bir sirri, işarəni ehtiva edən bu kitablar Eminin özünü, obrazını, xarakterini o qədər dəqiq tamamlayır ki... Onun yaşıdlarından seçilən həssaslığa malik olduğunu iki ayrı məqamda hiss etmişdim. Bir müharibə şeirlərini oxuyanda, bir də sonradan "Ədəbiyyat qəzeti"ndə "1 şeir, 2 rakurs" layihəsinin müzakirəsinə çıxartdığımız "Abort stolunda yalvaran körpə" şeiri ilə tanış olanda. Hər iki mövzuda yazılan şeirlərdə əsas predmet uşaqdır. Emin Pirinin şeirləri arasından dəfələrlə keçən bu obraz dərin məna və sosial-mənəvi əhəmiyyətə malik fəlsəfi zəmin üzərində qərar tapır. "Abort stolunda yalvaran körpə"nin hayqırtıları hələ də qulaqlarımda əks-səda verir. "Dünyanın ən təmiz yalanı" şeirində əlcəksiz uşaqların barmaqlarını sızıldadan qarın soyuqluğunu lap dərindən duyuram. Hələ dünyaya gəlməyən, ana bətnindəcə öldürülən uşaqlar üçün belə əzab çəkən şairin digər kontekstdə, müharibədə öldürülən uşaqlarla bağlı sərgilədiyi narahatlıq birləşəndə bəşəriyyətin mürəkkəb səciyyəsi, miskin bir obrazı meydana çıxır. Eminin müharibə şeirləri bəlkə ona görə fərqləndi ki, o, çağdaş insanın deqradasiyaya uğrayan dəyərlər sistemi içində savaşlardan əzab çəkən uşaq obrazlarını dünyanın ədalətsizliyinə nümunə kimi yarada bildi:

*Hamıdan çox uşaqları sevər*
*müharibələr.*
*Kiminin alnından,*
*kiminin gözündən öpər.*
*Tanrı daha tez*
*sevdiklərini aparır deyirlər.*
*Allahın öpüşüdü*
*bəlkə elə bu güllələr?!*

Emin Pirinin müharibə şeirlərindəki səmimiyyətə həmişə inanmışam. Onlar dərin səciyyəsi ilə yeni poetik müstəvi yarada biliblər. Minaya düşən ananın paralanıb özündən aralı düşən qolunun altıaylıq uşağı ilə bir basdırılması, ayağını itirən döyüşçünün düşüncələri, şəhid məzarlarına qoyulan başdaşları, səngərə məktub yazan qızın qorxuları, ağır döyüşdən sonra "sağ qalan varmı" xitabı ilə əsgərlərinə xitab edən tağım komandirinin üzləşdiyi lal sükutdan tutmuş, "mərmilər altında sevişən göyərçinlər"ə qədər fəci və təsirli məqamlar bu poeziyada bədii məcra, estetik məkan kəsb edə bilib.

*hər əsgər tabutu*
*bir ağ gəlinliklə köçər...*
*əsgər deyil,*
*sevən qızın arzularını*
*götürüb gedər*
*hər atılan güllə.*

Amma uşaqlara münasibət bu şeirlərin özündə belə dəyişir, daha bədii-fəlsəfi şəkil alır. Müharibələrdə "analar uşaq yox, şəhid doğur daha"... Nə qədər doğru ifadədir. Gözümüzün önündə baş verənləri xatırlatdımı sizə? Hətta ərazisində heç bir döyüşün getmədiyi, amma müharibənin, erməni zalımlığının qurbanına çevrilən Gəncə, Bərdə, Tərtərdə ölən uşaqları yada saldımı? İndi, son iki ayda yaşadığımız bunca ağrı-acıdan sonra bu şeirlərdəki zamanı ötə bilən duyğu selini görüb heyrətlənməyə bilmirəm. Bir göz qırpımında öldürülən uşaqların şəkilləri suda üzürmüş kimi qarşımda cərgələnir: qalıqlar altında qalan Mədinə, yelləncəyinin yanına donuq cəsədi uzanan Aysu və ömrü yarıda kəsilən nə qədər uşağın məzarlardan boylanacaq şəkilləri. Hələ bunların heç birinin baş verməditi zamanda Emin aşağıdakı kədərli tablonu bu qədər həssaslıqla rəsm etməyə gücü hardan almışdı görəsən?

*Qızım, görə bilmədim*
*mənə doğru yerişini.*
*İndi rəsmlərin*
*Şəkil-şəkil iməkləyir divarımda.*

*Qızım, başdaşın özündən uca,*
*məzarın səndən qoca.*
*sənsə hələ də körpə...*

*Həbsxana köşəsində*
*qəfəs içindəki quş qədər azaddır*
*mənim sülh arzularım.*



*Qızım, bütün boş yelləncəklərdə*
*səni görürəm*
*görürəm buludsuz səmada bulud kimi,*
*qaranlıq gecədə günəş kimi.*

*Qızım, saçlarım darıxır -*
*yolmağınçün,*
*yanaqlarım çuxura dönüb*
*yerini doldurmağa -*
*o quyular totuş barmaqlarına həsrət*
*həyətim ayaq izlərinə möhtac.*
*Bilirəm, uşaqlar ölmür,*
*böyüklərdən küsür,*
*küsür bu dünyadan*
*və eləcə uçur, gedir...*

*Bağışla,*
*Bağışla, sənə dəyən güllələri.*
*Qolundakı metal qırıntısına gülümsə -*
*bir çimdik bil, böyüklərdən hədiyyə.*

"Mən hərbçi işləyərkən cəbhə bölgəsində səngərdə olmuşam. Səngərdə gördüyüm hadisələr həyatımda daha dərin iz buraxıbdır, nəinki sevgi yaşantıları" - müsahibələrinin birində demişdi.

Sonralar yazdığı, "Ədəbiyyat qəzeti"ndə ilk oxucularından olduğum "Venesiyaya məktub" şeirlərində sevgidən də yazdı Emin. Həm də fərqli ampluada. Silsilə bitəndən sonra bu haqda ayrıca yazmağı düşündüyümdən geniş təfərrüata varmıram. Yalnız onu deyim ki, Eminin "Venesiyaya məktublar"ı həm modern düşüncə sistemi, həm də irfani təfəkkürün işlənib mükəmməllik zirvəsinə qalxan ənənə və modellərini özündə ehtiva edir. Bu ideal fonda sevginin bütün ideallardan üstünlüyü görünür, ümum kainat, kosmik miqyas alan mahiyyəti ilə bədii mozaikanın diqqət hədəfində dayanır:

*Ayaqlarımın addımlamağı*
*əllərimi aldatmaqdı*
*səcdə edir getdiyin yollara.*
*Üzümü hara tutum dua edəndə*
*Məkkəyə, Vatikana*
*Yoxsa Venesiyaya?*

"Venesiyaya məktub"larında Emin Piri "İnsan-Tanrı" tellərini canlı və cansız aləmin münasibətlərinin zənginliyi müstəvisində təhlil edir. İroniya acısını artırdığı bu mətnlərdə darıxan, ovunmayan obraz qismində yer alan şairin dərinlərə adlayan yaradıcılıq ruhunun təzahürlərini sezməmək olmur:

*Aldadasan hamını...*
*Elə özünü də*
*Tanrını da*
*Onun yazdığı 75 illik ömrü də*
*33 yaşında*
*atasan özünü*
*dənizin qolları arasına.*

*Cırasan alın yazısının*
*qalan səhifələrini*
*balıqlar öpə gözündən,*
*yosunlar anantək bələyə səni.*
*Allah da köks ötürüb deyə:*

*"Bağışla.*
*Bağışla məni".*

Qayıdaq mövzumuza. Bu silsilənin yeddinci, doqquzuncu məktublarını nədənsə "Qarabağda və bütün müharibələrdə həlak olan körpələrə" ithaf etmişdi Emin Piri. Görünür, özünün dediyi kimi, yuxularında da səngər görən adamın o hisslərdən uzaqlaşmağı asan olmurmuş...

*...Bu qızcığaz da*
*cuppulu barmaqlarıyla*
*qıdıqlayır*
*atasının məzarını.*
*Uşaq ağlı...*
*Yadında belə qalıb,*
*bəlkə güldürə bildi atasını...*

Ədəbiyyat millətə enerji püskürdən qüvvət mənbəyi olmalıdı. Bu illər ərzində bizdə yazarın bədii missiyası ancaq ölüm, ah-zar, gözyaşı, nalə, inilti, fəryad, şikayət və başqa bu kimi hisslərə köklənməklə məhdudlaşdı. Emin Piri də bu mövzuda nə qədər fərqli poetik yaşam sərgiləsə də məğlubluq kompleksinin təzahürlərindən yayına bilmədi. Amma Birinci Qarabağ savaşındakı məğlubiyyət acısını canında yaşatdığı üçün illər ötsə də itkilərə və ağrıya həssaslığı azalmadı. Keçmişə daha konkret və bitkin şəkildə nəzər saldı, onu ən sərt, ironik intonasiya ilə sorğulamaqdan çəkinmədi:

*Şəhid məzarlarını*
*mərmərə bükdük,*
*daş qoyduq başlarına*
*qalxa bilməsinlər*
*üzümüzə tüpürməyə.*

**Zaman şairə imkan verdi ki, xalq olaraq üstümüzdəki ləkəni təmizləməyə yol görünən hünər meydanında iştirakı ilə içindəki bu yükdən özünü xilas etsin, o müqəddəs yerlərin hər qarışında iz salsın, tarixin başdan yazıldığı bu qalibiyyət sənədində imzalar içində imzası olsun. Eminin şair kimi bundan sonra da təsirli mətnlər meydana qoyacağına əminəm. Tarix müəllimi kimi şagirdlərinə qucaq dolusu vətən eşqi, vətən sevdası aşılamağına da həmçinin.**

**İndi buna onun hamıdan çox haqqı var!**

**edebiyyatqazeti.az**

# “Şeirlərim silindi, çox dərin psixoloji sarsıntı keçirdim“

*İstedadlı insan hansı millətə mənsub olur-olsun, sənət nümunələri yaradacaq. Müsahibimiz şair, bəstəkar Aysel Kərimdir.*



**-Gənc Ədiblər Məktəbini birlikdə bitirdik. Hətta 2014-cü ildə ”ilin gənci” mükafatını birlikdə almışdıq. Gənc Ədiblər Məktəbi Aysel Kərimə nə verdi? Ümumiyyətlə, bu tip dinləyici klub, məktəblər ədəbi mühitdə, gənclikdə hansı rolu oynayır?**

-Bəli, Emin bəy. Tamamilə doğru qeyd etdiniz. Buta Sarayında- ”Gənclər mükafatı” na layiq görüldüyümüz o möhtəşəm nominasiya xoş günlərimdən biri kimi xatirəmə həkk edilib.

Yaradıcılıq dediyimiz məfhum sözsüz ki, fərdi şəkildə ərsəyə gəlir. Lakin ədəbi toplantıların yaradıcılıq fəaliyyətimizdəki xüsusi rolu da danılmazdır. Beləki, hələ yeniyetmə çağlarımda Xalq şairlərimizin, Xalq yazıçılarımızın ədəbi nümunələrimə yanaşım tərzi məndə stimul yaratdı. İstər Gənc Ədiblər Məktəbində, istər Bakı Slavyan Universitetinin yaradılıq fakültəsindəki ədəbi görüşlər, həmkarlarımızla geniş fikir mübadiləsi ovqatımıza daha da rəng qatırdı.

Yaradıcı insanlar həm də ruhən qohumdurlar. Ona görə də hər insan öz əqidəsinə uyğun olan kəslərin çevrəsində yer almaqdan məmnun olar.

**-Bəstəkar Aysel Kərim, yoxsa şair Aysel Kərim? Hansı öz sahəsində daha peşəkardır?**

-Həm Azərbaycan Bəstəkarlar İttifaqının, həm də Azərbaycan Yazıçılar Birliyinin üzvüyəm.

Deməzdim ki, biri digərindən geridə qalır. Xeyr. Hər ikisini də eyni səviyyədə paralel olaraq icra etməyə nail oluram. Mənə əziz olan musiqi və poeziya eyni zamanda bir-biri ilə vəhdət təşkil edir.

**- Valideynlər qız övladlarını adətən həkim görmək istəyir. Sizdə də belə olub səhv etmirəmsə?**

-Sənətimi valideynlərimin xeyir-duası, istəyi, rızası ilə seçmişəm. Gəncə şəhərində keçən illərim kiçik yaş dövrümə təsadüf edib.

Gəncədə stomatoloq kimi çalışan bir xanımdan anamın çox xoşu gəlib və o hissin təsiriylə ”gələcəkdə bəlkə sən də stomatoloq olasan?” deyə məndən soruşub. Mən isə ”bəstəkar olacam” deyə cavablamışam.

### *”Həvəskar polis”, ”həvəskar həkim” ifadəsi yanlış olduğu kimi ”həvəskar bəstəkar” deyimi də yanlışdı*

**-Müasir dövrdə bayağı mahnılar çoxalıb. Bunu nə ilə əsaslandırmaq olar?**

-İndi ”həvəskar bəstəkar”, ”həvəskar musiqiçi” ifadələrinə çox tez-tez rast gəlirik. Bir məqama xüsusilə toxunmaq istərdim ki, ”həvəskar həkim”, ”həvəskar iqtisadçı”, ”həvəskar polis” ”həvəskar jurnalist”, ”həvəskar hüquqşünas” və.s bu cür ifadələr yanlış olduğu kimi musiqi sənətinin önündə işlədilən ”həvəskar” anlayışı da kökündən yanlışdır.

Hər kəs öz sahəsində peşəkarcasına fəaliyyət göstərsə vətənimiz adına daha gözəl işlər ərsəyə gətirə bilərik. Hər hansı sənət üzrə ali elmi biliyə yiyələnmədən nələrsə etməyə çalışmaq sadəcə olaraq həmin sənəti zədələyib, zərər yetirə bilər. Biz uzun illərdir elə insanlarla mübarizə aparmaqdayıq.

**-Bizdə çox vaxt deyirlər ki, Nazim Hikmət, Dostoyevski, Tolstoy, Hüqo, Markes və. s oxuduqdan sonra Azərbaycan ədəbiyyatını oxuyub niyə vaxt itirim? O anlayışla biz də deyə bilərik ki, Hans Zimmer, Vangelis, Ennio Morrikone və s. bəstələrini dinlədikdən sonra sizlərə niyə zaman ayıraq? Siz necə düşünürsünüz?**

-Mənim yanaşım tərzim belə deyil. Bu fikir ədəbiyyat və musiqi sahəsində olan istedadlı peşəkar insanlara hörmətsizlikdir və tamamilə yanlışdır.

Azərbaycan mədəniyyəti heç də başqa dövlətlərdən oğurluq və təkrarçılıq deyil. Ümumiyyətlə, istedadlı insan hansı millətə mənsub olursa-olsun, harada yaşamağından asılı olmayaraq sözsüz ki, özünəməxsus sənət nümunələri ərsəyə gətirəcəkdir. Bunun üçün irqi ayrıseçkilik etməyə nə gərək var ki?

Heç də məntiqli deyil. Daha dolğun şəkildə desək çalışmalıyıq ki, başqa ölkələrin və öz ölkəmizin əsl sənət nümunələrini oxuyaq və dinləyək.

### *Şeirlərim silindi, çox dərin psixoloji sarsıntı keçirdim*

**-Sayca neçə şeir kitabınız var?**

-”Bir ovuc yağış” və ”Kəpənəyin göz yaşı” adlı şeirlər kitabının müəllifiyəm. Heç bir müsahibədə açıqlamadığım bir hadisəni sizinlə bölüşmək istərdim. 2016-cı ildə şeir kitabımı nəşr etdirməyə hazırlaşırdım. Texniki səhvə görə notebook-un yaddaşından 150 ədəd şeirim silindi. Nə qədər mütəxəssislərə müraciət etsəm də çaba göstərməyimə rəğmən təəssüf ki, format olunduğu üçün geri qaytarmaq mümkün olmadı. Çox dərin psixoloji sarsıntı keçirtmişdim.

Hələ də xatırladıqca təsirlənirəm. Amma mənə dəyər verən insanların sayəsində toparlandım və qaldığım yerdən davam etməyə başladım.

Elə hadisə yaşamasaydım say etibarı ilə üç kitab olacaqdı.

**-Üzeyir Hacıbəylini yalnız musiqidə deyil, ədəbiyyatda da xatırlamalıyıq...**

-Təbii ki, Üzeyir bəy Hacıbəyli yaradıcılığında söz və musiqinin vəhdətinə mükəmməl şəkildə nail olan dahi idi.

**- Yüksək vəzifəli insanlarla dostluğunuzu görürük.**

- Dostluq anlayışı mənim üçün güvən hissindən başlayır. İnsanların məşhur və yüksək görəvli olmağı önəmli deyil. Dostluq edə bilməyim üçün əsl şərt həmin kəslərin vicdanlı, ağıllı, əxlaqlı, düzgün olmağıdır. Əgər mənəvi cəhətdən və əməllərimiz sarıdan uyğunluq olmasa münasibəti dayandırıram.

Yalnız öz həmkarlarımla deyil digər sahələrdən olan insanlarla da çox gözəl əlaqələrimiz var.

Qeyd etdiyim kimi yetər ki, həmin insanlar bəşər övladına, bəşəriyyətə sayğıyla yanaşsın, vətənini, millətini ürəkdən sevsin. Ən əsası Tanrının varlığını unutmasın. Əks təqdirdə yollar ayrılır.

**-Sizi qapalı və məsafəli insan kimi tanıyırıq. Bəs, özünüz necə izah edərsiniz?**

-Razıyam. Kiçik yaşlarımdan xarakterim məhz bu cür formalaşıb. Qapalı və məsafəli olmaq cəmiyyətə güvənsizliyimdən irəli gəlmir. Həyatdakı mövqeyinə, mənliyinə bələd olduğum insanların əksəriylə əslində səmimiyəm. Yaşca böyük ziyalılar təmkinli, səbrli, dözümlü olduğumu söyləyiblər. Psixologiyanı bilmək, anlayışlı davranmaq önəmlidir. Çevrəmdəkilər güvənərək sirlərini rahat şəkildə bölüşürlər. İnsanların etibarını qazanmaq əsl xoşbəxtlikdir. Bacardığım qədər ehtiyacı olan hər kəsi doğru yola çəkirəm. Faydalı tövsiyyələr verməyi özümə borc bilirəm. Buna görə vicdanım çox rahatdır. Düzgünlük, mərdlik həyat amalımdır.

**-Əməkdaşlıq etdiyiniz sənətkarlar içərisində sizə kapriz göstərən olub?**

- Xeyr, belə hal ilə rastlaşmamışam. Əksinə məni öz övladları gözündə görüblər. Doğma münasibət bəsləyiblər. Qarşılıqlı olaraq çox gözəl anlaşmışıq. Ərsəyə gələn işlər də olduqca uğurlu alınıb.

**-Müxtəlif mövzulara toxunursunuz. Onların içərisində vətənpərvərlik mövzuları da var.**

-Bəli, düzgün qeyd etdiniz. Vətənpərlik mövzusunda bir neçə himnlər, əsərlər, mahnılar müəllifiyəm. Hal-hazırda bir neçə əsərlərin də üzərində çalışıram.

**Söhbətləşdi:**
**Emin Piri**

## Serial izləyiciləri təəccübləndirdi, Neslihanın ardınca o da uzaqlaşdı

**Uzun müddətdir, ekranlarda olmayan Tuba Büyüküstan baş rolu canlandıran Neslihan Atagülün yerinə ”Sefirin kızı” serialına daxil olub.**

### *Seriala Tuba Büyükstan gəldi*




Bir neçə gün əvvəl Neslihanın sağlamlığı ilə əlaqədar problem yaşadığını xəbər vermişdik. ”Bağırsaq pozğunluğu” diaqnozu qoyulan və səhhətinin ağırlaşması səbəbindən serialdan ayrılan Neslihan Atagülü Tuba Büyükstan əvəzləyib. Tuba Büyükstan və ”Sefirin kızı” serialının baş rol oyunçusu Engin Akyürek daha əvvəl ”Kara Para Aşk” serialında da baş rolları canlandırmışdılar. Son olaraq 2014-cü ildə birlikdə olan ikili illər sonra yenidən eyni arada oldular - ”Sefirin kızı”.

### *Neslihanın bu mesajı izləyiciləri sarsıtdı*

Yayımlananan gündən bəri serialda baş rol oynayan Neslihan Atagül sağlamlığı ilə əlaqədar ”Sefirin kızı”ndan ayrıldı.

Ayrılınca ”İnstagram” hesabında serialın heyəti ilə sağollaşan aktirsa bu sözləri yazıb: ”Oynayarkən hüceyrələrimə qədər hiss etdiyim Nare ilə vidalaşıram. Mən dözsəm də, bədənim mənə qarşı dözümlü olmadı. Bir az dincəlməyə ehtiyacım var. Tamaşaçılarıma təşəkkür edirəm. Hər zaman sizin dəstəyinizi hiss etmişəm. Ən qısa zamanda başqa seriallarda görüşmək ümidilə”.

### *Serialda nələr baş verir? Uraz Kaygılaroğlu da serialdan ayrılırmı?*

**”Sefirin kızı” serialından izləyicilər üçün daha bir üzücü xəbər gəldi. Neslihanın serialı tərk etməsinin ardınca Uraz Kaygılaroğlunun da serialdan uzaqlaşması xəbəri gündəm oldu. Urazın 2 ay sonra serialı tərk edəcəyinə dair xəbərlər ara-sıra mediada yayımlanırdı. Ancaq serialda yeni bir hekayənin başlaması səbəbindən aktyorun serialdan ayrılması da tezləşdi. Belə ki, Gediz İşıklı xarakterini canlandıran Urazın 1-2 bölüm sonra serialla vidalaşacağı bəlli oldu.**

**Rövşən Tahir**

**Quba rayonu Aqrar İslahat Komissiyasının 03 may 1997-ci il tarixli 04 nömrəli qərarı ilə Quba rayonu Amsar kənd sakini Abdullayev Nizami Şahbaz oğlunun adına verilmiş Azərbaycan Respublikası Torpaq Mülkiyyət Hüququna dair JN-547 Kod 30307018 Dövlət Aktı itdiyi üçün etibarsız sayılır.**

***

**Mehtiyev Tural Şakir oğluna məxsus 15,04,2015-ci ildə verilmiş ABN №006172 nömrəli traktorçu-sürücü vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

# 130 yaşlı Lənkəran teatrı

**Yanvarın 18-də Lənkəran Dövlət Dram Teatrının 130 yaşı tamam olur. Yubiley öncəsi teatrın direktoru Tofiq Heydərovla görüşüb ondan bir neşə suala cavab verməsini xahiş etdik.**

**-Tofiq müəllim, teatrınızın inkişaf yolu barədə nə deyə bilərsiniz?**

- Lənkəranda professional teatrın tarixi XIX əsrin sonlarına təsadüf edir. Milli Elmlər Akademiyasının teatr bölməsinin təqdimatına əsasən Mədəniyyət Nazirliyi Lənkəran Dövlət Dram Teatrının yaşının 1891-ci ilin yanvarında Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" əsəri əsasında səhnələşdirilmiş "Oddan-alova" adlı komediyası ilə təsdiqləndiyi barədə qərar çıxarıb. Məlumat üçün bildirim ki, Lənkəranda işləmək, burada maarif və mədəniyyət toxumunu yaymaq bir çox sənətkarların həyat məqsədi olub. Azərbaycanın görkəmli bəstəkarı Müslüm Maqomayev 1905-ci ilin sentyabr ayından Lənkəranda müəllimlik fəaliyyətinə başlayaraq, burada dörd sinifli məktəbdə coğrafiya və təbiət fənlərini tədris edib. Teatrın Lənkəranda təşəkkül tapmasında SSRİ xalq artisti, görkəmli səhnə ustası Sidqi Ruhullanın da böyük yaradıcılıq köməyi olub. 1912-ci ildə Lənkərana gələn S. Ruhulla burada dram heyəti yaratmaq istəyən həvəskarlarla "Bəxtsiz cavan", "Nadir şah" faciələrini, N.B.Vəzirovun "Ev tərbiyyəsinnin bir şəkli" və s. əsərləri səhnələşdirib.

Yerli ziyalılardan Teymur Şahverdiyevin "Altı rəfat" və "Həqiqi röya" adlı əsərlərinin 1923-cü ildə səhnələşdirilməsi də böyük əks-sədaya səbəb olub. Hər iki əsər yeni yaradılan Hüseyn Ərəblinski adına Xalq Teatrı artistlərinin və yerli ziyalıların qüvvəsi ilə hazırlanıb. Xalq teatrı təxminən 10 ildən artıq fəaliyyət göstərərək, sonralar yaradılan peşəkar teatr üçün zəmin yaradıb. Azərbaycanın tanınmış artistləri və müğənnilərindən Həqiqət Rzayeva, Münəvvər Kələntərli, Haşım Kələntərli, İsmayıl Talışınski, Cahan xanım Talışınskaya kimi məşhur sənətkarlar ilk addımlarını məhz Lənkəran teatrının səhnəsində atıblar.

Lənkəran Dövlət Dram Teatrı 1934-cü ilin dekabrından 1949-cu ilə kimi səmərəli fəaliyyət göstərib. Böyük Vətən Müharibəsi illərində arxa cəbhədə qazandıqları müvəffəqiyyətlərə görə teatrın direktoru və rejissoru Qəni Vəliyev və aktyor Kamil Nəcəfov Azərbaycan SSR-in əməkdar artisti fəxri adına layiq görülüb, bir qrup aktyor isə Ali Sovetin Fəxri fərmanları ilə təltif olunub. Lənkəranlıların teatr sənətinə sonsuz məhəbbəti nəticəsində isə 1959-cu ilin dekabr ayında rayonda yendən H. Ərəblinski adına Xalq teatrı təşkil edilib. Cavan yaradıcı qüvvələrlə müntəzəm iş aparmaq, yeni-yeni istedadları axtarıb tapmaq, öz repertuarını müasir həyatla səsləşən əsərlərlə zənginləşdirmək və beləliklə xalqa mədəni xidmət göstərmək kimi vəzifələr teatrın əsas fəaliyyət proqramı olub. Xalq Teatrına respublikanın əməkdar artisti Kamil Nəcəfov rəhbərlik edib.

**-Aldığımız məlumata görə, Lənkəran Dövlət Dram Teatrı uzun müddətli fasilədən sonra Ulu Öndər Heydər Əliyevin məhz təşəbbüsü və xeyir-duası ilə yenidən fəaliyyətə başlayıb.**

-Bəli, elədir ki, var. Bu, 1973-cü ilin dekabrın 6-a təsadüf edib. Vurğulamaq istərdim ki, Ulu Öndər bütün fəaliyyəti dövründə mədəniyyətimizin və incəsənətimizin inkişafı istiqmətində bir sıra layihələrin həyata keçirilməsində əlindən gələni əsirgəməyib. Lənkəranda ikinci dəfə professional teatrın təşkil edilməsi də məhz onun təşəbbüsü ilə gerçəkləşib.

Yarandığı ilk vaxtlardan sağlam mənəvi prinsiplər üzərində təşəkkül tapan teatrımız ötən 48 il ərzində 250-dən çox əsərə səhnə həyatı verib. Teatr nəinki respublikamızda, eyni zamanda bir sıra xarici ölkələrdə, o cümlədən Özbəkistanda, Gürcüstanda qastrol səfərlərində olub, qardaş Türkiyənin İstanbul, Ankara, Dənizli və Konya şəhərlərində, İran İslam Respublikasında keçirilən beynəlxalq festivallarda uğurlar qazanıb. Teatrın yaradıcı kollektivinin hazırladığı Üzeyir Hacıbəyovun "Olanlardan-keçənlərdən" və Cəlil Məmmədquluzadənin "Ölülər" tamaşaları Azərbaycan Dövlət Televiziyasının Qızıl Fonduna daxil edilib.

2004-cü ildə isə Lənkəran Dövlət Dram Teatrının binası əsaslı şəkildə təmir edilərək, müasir şəkildə yenidən qurulub. Həmin ilin noyabr ayının 9-da Lənkəranda səfərdə olan Azərbaycan Respublikasının prezidenti İlham Əliyev teatrda olub və burada görülən işləri yüksək qiymətləndirərək respublikaya nümunə olduğunu vurğulayıb. Hazırda teatrımızda 2 xalq artisti, 2 əməkdar artist və 1 əməkdar incəsənət xadimi, həmçinin ən yüksək ada və şərəfə layiq olan onlarla sənət fədaisi çalışır.

**- 2019-cu ilin əvvəllərində dövlət başçısı tərəfindən respublika teatrlarına böyük dəstək göstərildi. Sizin kollektiviniz də bu dəstəkdən kənarda qalmadı...**

- Düz qeyd etdiniz. Ölkəmizdə mədəniyyətə, incəsənətə, o cümlədən teatr sənətinə qayğı bu gün Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən layiqli şəkildə davam etdirilir. 2019-cu il martın 1-də mədəniyyət və incəsənət xadimləri ilə keçirilən görüşdə də bunun bir daha şahidi olduq. Əminliklə deyə bilərəm ki, Azərbaycan dövləti mədəniyyətimizin qorunub saxlanılması, inkişaf etdirilməsi, gələcək nəsillərə çatdırılması və xüsusən, beynəlxalq aləmdə tanıdılması məsələlərində daim sənət adamlarının və mədəniyyət müəssisələrinin himayədarıdır.

Sözü gedən görüşdə dövlətimizin başçısının yaşından, titulundan, tutduğu vəzifədən asılı olmayaraq, mədəniyyət sahəsində çalışan bütün insanların çıxışına diqqətlə qulaq asdığını, qaldırılan məsələyə konkret və yerindəcə münasibət bildirdiyini, tədbir görülməsi üçün tövsiyə və tapşırıqlarını verilməsini böyük razılıq hissi ilə qarşıladıq.

Ölkə başçısının teatr işçilərinin aylıq əmək haqlarının artırılması barədə təkliflərin hazırlanması və əhəmiyyətli dərəcədə artırılması ilə bağlı müvafiq qurumlara verdiyi göstəriş, həmçinin onun "Azərbaycan teatrlarının inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" 4 mart 2019-cu il tarixli Sərəncamı isə hədsiz sevincimizə səbəb oldu. Həmin Sərəncamla bizim teatra da ayrılmış 100 min manat pul vəsaiti hesabına maddi-texniki bazamızı müəyyən qədər yeniləməyə nail olduq.



**- Hazırki koronavirus pandemiyası şəraitində fəaliyyətinizi necə qurmusunuz?**

- Açığını deyim ki, 2020-ci ilə yüksək əhval-ruhiyyə ilə başladıq, çünki qarşıda iki qastrol səfərimiz var idi. May ayında Rusiya Federasiyasının Mahaçqala və Dərbənd şəhərlərində C.Cabbarlının "Vəfalı Səriyyə" və iyun ayında isə Qazaxstanın Aktau şəhərində H.Mirzənın "Moskvalı gəlin" tamaşaları ilə çıxışımız nəzərdə tutulmuşdu. Cox təəssüflər olsun ki, ölkənin digər konsert-tamaşa müəssisələri kimi, bizim də bir sıra layihələri gerçəkləşdirməyə imkanımız olmadı. Buna səbəb isə bütün dünyada koronavirus (COVİD-19) pandemiyasının tüğyan etməsi idi.

Ötən dövr ərzində biz də öz fəaliyyətimizi mövcud karantin şəraitinin tələblərinə uyğun qurmuş, iş-gücümüzdən heç də tamamilə təcrid olunmamışıq. Kollektivimiz pandemiya ilə bagli yaradımış yardım fonduna ianə köçürməklə bu bəlaya etinasız olmadıgını bir daha nümayiş etdirmişdir.

Biz yaradıcılıq fəaliyyətimizi virtual qaydada davam etdirməklə özümüzün "YouTube" və "Facebook" səhifələrindən tamaşalarımızı qabaqcadan tərtib olunmuş repertuar planı əsasında izləyicilərimizə təqdim edirik. Kollektivimizdə yaradıcılıq prosesinin gücləndiriməsi bundan sonra da əsas priaritetlərimizdən olacaq. Bunun üçün müəyyən planlar üzərində düşünürük. Hələ yay aylarında pandemiyadan sonrakı dövrdə tamaşaçıların psixoloji durumunu nəzərə alaraq komediya janrında tamaşa hazırlamaq məqsədilə ölkə üzrə gənc rejissorlar üçün müsabiqə elan etmişdik. Bu barədə mətbuat və internet portallarında xəbərlər də yayımlandı. Şərtlərə görə, rejissorlar seçdikləri əsərin eksplikasiyasını bizə təqdim edir və həmin əsər teatrın bədii şurasında müzakirə olunub bəyənildikdən sonra tamaşanın hazılanması ilə bağlı rejissorla müqavilə baglanılır. Müqavilədə rejissorunun qonorarının məbləgi təsdiq olunur. Təəssüf ki, aradan xeyli müddət keçməsinə baxmayaraq heç bir gənc rejissor bizə müraciət etmədi. Müsabiqəmiz isə hələ də qüvvəsini itirməyib, ancaq indi gənclərlə bərabər yaşlı nəsil rejissorları da müsabiqəyə qatılmağa dəvət edirik.

Biz respublika və xarici ölkə teatrları, eləcə də Regional mədəniyyət idarələri ilə sıx əlaqə quraraq əməkdaşlıq edir və işlərimizi günün tələbləri səviyyəsində qurmaga çalışırıq. Belə əməkdaşlıqlar heç şübhəsiz ki, teatrın yaradıcı kollektivinin pesəkarlıq səviyyəsinin inkişafına xidmət edir.

**- Çox güman ki, bundan sonrakı fəaliyyətiniz dövründə teatrınızın repertuarında 44 günlük Vətən müharibəsində Milli Ordumuzun qazandığı zəfər mövzusunda səhnə əsərləri də yer alacaq?**

- Əlbəttə! Rəşadətli Azərbaycan ordusunun respublikamızın ərazi bütövlüyünün bərpası və tarixi ədalətin bərqərar edilməsi uğrunda apardığı mübarizə hər bir ölkə vətəndaşı kimi biz lənkəranlı sənətçilərin də sevincinə və ruh coşğunluğuna səbəb olmuşdu. Ali Baş Komandan, cənab Prezident İlham Əliyevin başçılığı ilə həyata keçirilən zəfər yürüşləri, hər gün onlarla yaşayış məntəqələrimizin düşməndən təmizlənməsi əminlik yaradırdı ki, tezliklə üşrəngli Azərbaycan bayrağımız tezliklə mədəniyyətimizin beşiyi olan Şuşamızda, digər əzəli torpaqlarımızda dalğalanacaq. Elə də oldu. 44 günlük müharibə xalqımızın 30 illik həsrətinə həmişəlik son qoydu. Şanlı Azərbaycan Ordusunun qazandığı qələbələri, əsgərlərimizin şücaətini, xalqımızın vətənpərvərlik qüdrətini vəsf etmək məqsədilə biz hələlik "Zəfərin mübarək, Azərbaycan!" adlı audioçarx formatında ədəbi-bədii və musiqili kompozisiya hazırlamışıq. Tez-tez yenilənən audioçarx səsgücləndirici qurğular vasitəsilə teatrda, Lənkəran şəhərinin müxtəlif ərazilərində, rayonun ayrı-ayrı qəsəbə və kəndlərində səsləndirilir. Aktyorlarımızın ifasında audiolentə alınmış "İgid əsgər, möhkəm dayan!", "Əziz, doğma Şuşamız", "Qarabağ bizimdir!", "Qarabağ Azərbaycandır", "Müzəffər Ali Baş Komandan" və digər bu kimi başlıqlı şeirlər, mahnılar, musiqi nömrələri yerli sakinlər tərəfindən rəğbətlə qarşılanır. O ki, qaldı gələcək fəaliyyətimizə, inşallah hamılıqla gözəgörünməz düşmənimiz olan koronavirus pandemiyasını dəf edəndən sonra teatrımızın repertuarının ana mövzusu Qarabağın, şanlı ordumuzun, cəsur əsgərlərimizin və qanlarını Vətən uğrunda axıtmış şəhidlərimizin vəsfndən ibarət olacaq. Bu mövzuda tamaşa hazirlamaq üçün respublikamızın tanınmış rejissoru ilə danışıqlar aparmışıq. Ümid edirəm ki bu tamaşa həm də Lənkəran teatrının 130 illik yubileyinə əsl töhfə olacaqdır. Fikrimiz var ki, bu tamaşa ilə həmçinin Rusiya Federasiysına, qardaş Türkiyəyə, İran İslam Respublikasına qastrol səfərlərinə çıxaq. Fürsətdən istifadə edərək kollektivimiz adından ölkə başçısını, Mədəniyyət Nazirliyinin rəhbərliyini əmin etmək istəyirəm ki, teatr sənətinin inkişafı, gənc nəslin mənəvi tərbiyəsi üçün bundan sonra da əlimizdən gələni əsrgəməyəcək, günün tələblərinə cavab verən yüksək səviyyəli tamaşalar hazırlayacağıq.

**- Tofiq müəllim, maraqlı müsahibəyə görə çox sağ olun. 130 illik yubileyiniz mübarək!**

- Təşəkkür edirəm.

**Müsahibəni apardı:**
**Ağaddin BABAYEV,**
**yazıçı-publisist, teatrşünas**

Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS

Baş redaktor:
İradə TUNCAY

Qəzet “Ədalət” qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və “Son dakika” MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, “AZƏRBAYCAN” nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 434-55-98
Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 2000
Sifariş: 51
Çapa imzalanmışdır:
21.01.2021